# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 20 (3436) Cümə axşamı / 26 may - 1 iyun 2022-ci il Qiyməti 40 qəpik


MÜSAHİB

## Cümhuriyyət bütün müsəlman Şərqinin Dan Ulduzu oldu



**Musa Qasımlı,**
AMEA-nın müxbir üzvü, professor,
Milli Məclisin deputatı

***Qədim və zəngin dövlətçilik ənənələrinə malik olan Azərbaycan xalqı özünün azadlığı və müstəqilliyi uğrunda daim mübarizə aparıb. Azərbaycan tarixinin əhəmiyyətli və yaddaqalan dövrlərindən olan XX əsrin əvvəllərində, dünyanın siyasi nizamının yenidən qurulduğu bir vaxtda istiqlaliyyətini elan etməsi idi. Həmin tarixdən düz 104 il keçir... Bu ərəfələr dövlətimiz, xalqımız Müstəqillik Gününü qeyd edir. Bu istiqamətdə "Həftə içi" qəzetinə müsahibə verən AMEA-nın müxbir üzvü, professor, Milli Məclisin deputatı Musa Qasımlı maraqlı məsələlərə diqqət çəkib.***

*Cümhuriyyət xadimlərinin arzusu olan güclü Azərbaycan dövləti qurulub*

Səh. 2

MÜSAHİB



**Tofiq Zülfüqarov,**
Azərbaycanın sabiq baş diplomatı

■ Rusiyada çoxları başa düşür ki, Putin ölkəni tələyə salıb

■ Hazırkı mərhələdə, hesab edirəm ki, ən azı, hərbi baxımdan üstünlük Rusiya tərəfdədir

■ Həmin layihə Ali Rada tərəfindən təsdiqlənərsə, Polşa vətəndaşları Ukrayna ərazisində seçkilərdə səsvermədən başqa Ukrayna vətəndaşları ilə eyni hüquqlara malik olacaq

Səh. 5

# 65 Dövlət qulluğunda yaş "maneə"si

***Hazırda bir sıra iddialara görə, dövlət qurumlarında çalışan, yaşı 65-dən yuxarı olan vətəndaşların işdən çıxarılması prosesi sürətləndirilib. Səbəb kimi isə, gənc kadrlar üçün yeni imkanların yaradılması göstərilir. Əvvəllər 65 yaşdan yuxarı təcrübəli işçilərə işlərinə davam etmələri üçün əlavə bir neçə il müddət verilirdi. Lakin tədricən bu tendensiya aradan qaldırılır. Bəs görəsən, dövlət qurumlarında çalışan 65 yaşüstü işçilər işdən azad edilərkən kadr çatışmazlığı kimi mühüm məsələ də nəzərə alınırmı? Bəzi sahələr var ki, burada çalışan mütəxəssislər işdən azad edildikdən sonra yerinə gənc kadrlar tapmaq bir qədər müşküldür. Həkimlik peşəsini buna sadə misal kimi göstərmək olar. Belə ki, Dövlət Statistika Komitəsinin (DSK) məlumatlarından aydın olur ki, son illərdə Azərbaycanda həkim sayı azalmaqdadır. 10 il öncə - 2011-ci ildə ölkədə 33 min 85 həkim vardı. 2020-ci ilin sonunda Azərbaycanda fəaliyyət göstərən həkimlərin sayı 31 min 829 nəfərə enib. Başqa sözlə, 10 il ərzində həkimlərin sayı 4 faizə yaxın azalıb. Hə, üstəlik burada əhali sayının artması amilini də nəzərə almaq lazımdır.***



■ **Mövzu ilə bağlı hafta.az-a açıqlama verən deputat Azər Badamov söylədi ki, 65 yaşdan yuxarı işçilərin dövlət büdcəsi hesabına maliyyələşən təşkilatlarda işdən çıxarılması qanunla təsdiq edilmişdir. Lakin müəssisələrə imkan yaradılır ki, onlar müəssisədə 1% civarında 65 yaşdan yuxarı işçi çalışdırsınlar.** Səhiyyə ilə bağlı məsələyə gəldikdə isə, millət vəkili bildirdi ki 65 yaşdan yuxarı həkimlərin kütləvi şəkildə işdən azad edilməsi düzgün deyil: "Qeyd etmək istəyirəm ki, bu sahə artıq İcbari Tibbi Sığortaya keçib. Yəni dövlət büdcəsindən birbaşa maliyyələşmədə iştirak etmir. Ona görə də, qanunun təsiri bu sahə üzrə dəyişilmək üzrədir. Bu gün Azərbaycanda həkim çatışmazlığı var. 65 yaşdan yuxarı həkimlərin kütləvi şəkildə işdən azad edilməsini düzgün hesab etmirəm. İcbari Tibbi Sığortaya keçid tam başa çatdıqdan sonra, artıq bu sahə dövlət hesabına maliyyələşməyən təşkilat kimi özünü təqdim edəcək və qanunun təsiri öz qüvvəsini itirəcəkdir". A.Badamov dövlət strukturunda və digər sahələrdə aparılan "gəncləşdirmə" siyasətini yüksək qiymətləndirdiyini xüsusilə vurğuladı:



**Azər Badamov,**
millət vəkili



**Vahid Əhmədov,**
millət vəkili



**Sahib Məmmədov,**
hüquq müdafiəçisi

"Hesab etmirəm ki, 65 yaşüstü vətəndaşların işdən azad edilməsi digər sahələrdə problem yarada bilsin. Bu yaşa çatmış insan, artıq istirahət etməli, ömrünü yaşamalıdır. 65 yaşdan sonra o yerin boşaldılması gənc kadrların işləməsi üçün yeni imkandır. Bəzi hallarda insanlar ömürlərinin sonlarına qədər öz vəzifələrini tərk etmirdilər. Nəticədə cavan kadrlar üçün iş yerləri olmurdu. Hazırda isə dövlətin bütün strukturlarında yaşıötmüş kadrlar çıxarılaraq əvəzində müasir, yenilikçi, savadlı gənclər işlə təmin olunurlar. Elə bu günlərdə Milli Məclisdə aparat rəhbəri dəyişilərək yerinə gənc kadr təyin edildi. Bu, gəncləşdirmə siyasətinə əyani nümunədir. Belə halları alqışlamaq lazımdır. Bu gün gənclərimiz üçün şərait yaratmasaq, gələcəkdə ciddi problemlərlə üzləşə bilərik".

■ **Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vahid Əhmədov da prosesin əslində çoxdan başlandığını söyləyib. Deputat bildirib ki, 65 yaşdan yuxarı işçilər artıq tədricən qurumlardan uzaqlaşdırılır:** "Amma mən bəzi məqamlarda bu prosesin o qədər də tərəfdarı deyiləm. Çünki bəzi sahələrdə təcrübəli insanları yaşı çox olsa da saxlamaq lazımdır. Yeni gələn cavanların təcrübəsi yoxdur, müəyyən səhvlərə yol verə bilərlər. Amma yanında təcrübəli şəxslərlə çalışsalar, nisbətən daha asan və məhsuldar iş ortaya qoymaq olar. Yaşlıların təqaüdə göndərilməsinə təəccübələnməmək lazımdır. Cavanlaşma prosesinə çoxdan start verilib. Müəyyən qurumlara cavan rəhbərlər, nazirlər də gətirilib".

*65 yaşdan yuxarı həkimlərin kütləvi şəkildə işdən azad edilməsini düzgün hesab etmirəm*

*Yaşlıların təqaüdə göndərilməsinə təəccübələnməmək lazımdır*

*Dövlət orqanlarının ali kateqoriyalarına yaş həddi məsələsi şamil olunmur*

Vahid Əhmədov qeyd edib ki, "Dövlət qulluğu haqqında" qanun qəbul ediləndə ona səs verib, amma prosesdə çatışmazlıqlar da var: "Qanunun qəbulu vacib məsələlərdən biri idi. Digər tərəfdən bu qanunla biz qurumun rəhbərinin səlahiyyətlərini məhdudlaşdırırıq. Qurumun rəhbəri istədiyi təcrübəli adamı işə götürə bilmir. Həmin şəxs mütləq dövlət qulluğundan keçməlidir. Elə adamlar var, dövlət qulluğundan keçə bilməsə də bunu bacarandan daha yaxşı işləyir. Düşünürəm, problem tədricən həllini tapacaq".

■ **Məsələnin hüquqi tərəflərinə gəldikdə isə bu səpkidə suallarımızı hüquq müdafiəçisi Sahib Məmmədov cavablandırdı. O söylədi ki, yaşı 65-i ötmüş dövlət qulluqçularının işdən azad edilməsində heç bir hüquq pozuntusundan söhbət gedə bilməz:** "Dövlət qulluğu haqqında qanunun 31-1.1 maddəsində göstərilir ki, dövlət qulluqçusunun dövlət qulluğunda olmasının yaş həddi 65-dir.

Amma növbəti maddədə, 65 yaşa çatmış qulluqçunun dövlət qulluğunda olma müddəti müvafiq dövlət qurumunun rəhbəri tərəfindən hər dəfə 1 ildən çox olmayaraq uzadıla bilər. Bu iş müvafiq dövlət orqanı rəhbərinin səlahiyyətindədir. Belə uzanma izə 5 ildən çox olmamalıdır". Ekspertin sözlərinə görə, dövlət orqanlarının ali kateqoriyalarına yaş həddi məsələsi şamil olunmur: "Bu normanın nə qədər düzgün olub-olmadığını bilmirəm. Ümumiyyətlə, siyasi vəzifələrə aid edilmir. Hər halda qanunda belə qeyd edilib. Fikrimcə, bu, kadr çatışmazlığına səbəb olmaz, çünki Dövlət İmtahan Mərkəzi mütəmadi olaraq imtahanlar həyata keçirir və yaranmış kadr boşluğunu aradan qaldırır".

*Banu*

GÜNÜN FOTOSU...



**Səlcuk Bayraktar Bakıda MiG-29-da uçub**

GÜNÜN SİTATI



*Bir millət, iki dövlət şüarı ilə davam etdirdiyimiz mükəmməl səviyyədəki əlaqələrimizi Şuşa Bəyannaməsinə uyğun olaraq müttəfiqlik iradəsi ilə gücləndirdiyimizə görə məmnunluq hissi keçirirəm*

**Rəcəb Tayyib Ərdoğan,**
Türkiyə Prezidenti

KARİKATURA



**Ermənistan - Rusiyanın Qafqazdakı əyaləti**

## Paşinyan hakimiyyətdə qalacaq

**Teymur Qasımlı,**
beynəlxalq siyasi analitik

Qarabağda baş verən siyasi proseslərin arxasında Kreml var.

Səh. 5

STATİSTİKA



■ **Ötən ilin yanvar-aprel ayları ilə müqayisədə xarici ölkələrə gedən Azərbaycan vətəndaşlarının ümumi sayı 2,5 dəfə artaraq 400,2 min nəfər olub.**

İrana gedən Azərbaycan vətəndaşlarının sayı 4,7 dəfə, Türkiyəyə gedənlərin sayı 2,6 dəfə, Gürcüstana gedənlərin sayı 2,1 dəfə, Rusiya Federasiyasına gedənlərin sayı isə 1,9 dəfə artıb. Ölkə vətəndaşlarının 45,5 faizi Türkiyəyə, 16,7 faizi Rusiya Federasiyasına, 13,1 faizi İrana, 8,2 faizi Gürcüstana, 16,5 faizi digər ölkələrə səfər edib. Gedənlərin 67,1 faizini kişilər, 32,9 faizini qadınlar təşkil edib.



Səh. 5

## Hərbi təhsil mərkəzləşdirilir

## PREZİDENTİN İŞ GÜNÜ



**Prezident İlham Əliyev mayın 25-də Estoniya Parlamentinin sədri Yuri Ratasın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Dövlət başçısı Azərbaycanla Estoniya arasında ikitərəfli münasibətlərin gələcəkdə də uğurla inkişaf edəcəyinə ümidvar olduğunu bildirərək, qarşılıqlı təmasların önəmini qeyd edib və bu baxımdan Azərbaycan parlamenti sədrinin Estoniyaya, Estoniya parlamenti sədrinin isə ölkəmizə səfərinin həm ikitərəfli münasibətlərin, o cümlədən parlamentlərarası əməkdaşlığın genişlənməsinə töhfə verdiyini bildirib. Prezident İlham Əliyev Yuri Ratasın başçılıq etdiyi nümayəndə heyətinin Şuşaya səfərinə toxunaraq bu səfərin ermənilərin həmin ərazilərdə işğal dövründə törətdikləri genişmiqyaslı dağıntıları öz gözləri ilə görmələri baxımından çox önəmli olduğunu vurğulayıb.

Avropa İttifaqı-Azərbaycan əlaqələrinə toxunan dövlətimizin başçısı Brüsselə son səfərinin nəticələrini çox müsbət qiymətləndirib və səfər zamanı Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin bəyanatını qeyd edib, Avropa İttifaqının Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşmasında vacib rol oynadığını bildirib. Dövlət başçısı Avropa İttifaqı ilə əlaqələrin ölkəmiz üçün önəmini qeyd edib, bu əlaqələrin çoxşaxəli olduğunu və ənənəvi enerji sahəsindən əlavə digər istiqamətləri də əhatə etdiyini deyib və qeyd edib ki, ölkəmizdə yaradılan müasir nəqliyyat infrastrukturu və Azərbaycanın Xəzəryanı dövlətlər, eləcə də Qərb istiqaməti üzrə bağlantıları Avropa ilə Asiya arasında qarşılıqlı əlaqədə çox mühüm rol oynayacaq.

Estoniya parlamentinin sədri Yuri Ratas ilk növbədə 28 May - Müstəqillik Günü münasibətilə Prezident İlham Əliyevi və xalqımızı təbrik edib, iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd olunmasının önəmini vurğulayıb. Yuri Ratas Bakıya səfəri zamanı səmərəli və məhsuldar görüşlər keçirdiyini diqqətə çatdırıb. Görüşdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

***



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Prezident İlham Əliyevə təbrik məktubu ünvanlayıb. Məktubun mətnində deyilir:**

"Hörmətli cənab Prezident, əziz qardaşım. Can Azərbaycanın Müstəqillik Günü münasibətilə xalqım adından və şəxsən öz adımdan Zati-alinizi və bütün Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edirəm.

Bu mühüm və əlamətdar ildönümündə Türkiyə kədərini öz kədəri, sevincini öz sevinci kimi qəbul etdiyi qardaş Azərbaycanın haqlı qürurunu və həyəcanını ürəyində böyük xoşbəxtlik hissi ilə duyur.

"Bir millət, iki dövlət" şüarı ilə davam etdirdiyimiz mükəmməl səviyyədəki əlaqələrimizi Şuşa Bəyannaməsinə uyğun olaraq müttəfiqlik iradəsi ilə gücləndirdiyimizə görə məmnunluq hissi keçirirəm. Ortaq səylərimiz, nümunəvi həmrəyliyimiz və sarsılmaz qardaşlığımızın keçmişdə olduğu kimi, gələcəkdə də regionumuzda sülhün, rifahın və sabitliyin ən böyük təminatçısı olmaqda davam edəcəyinə ürəkdən inanıram.

Fürsətdən istifadə edərək, Zati-alinizə cansağlığı və xoşbəxtlik arzulayır, dost və qardaş Azərbaycan xalqına əmin-amanlıq və rifahının davamlı olması üçün ən xoş diləklərimi bir daha ifadə edirəm".

***

**Böyük Britaniya və Şimali İrlandiyanın Kraliçası Ülyahəzrət II Elizabet Prezident İlham Əliyevə təbrik məktubu göndərib.**



Məktubun mətnində deyilir:

"Zati-aliləri. Milli bayramınız - Müstəqillik Günü münasibətilə Sizə və Azərbaycan xalqına təbriklərimi və xoş arzularımı çatdırıram. Ümidvarıq ki, qlobal sağlamlıq problemlərini qətiyyət və mətanətlə birgə dəf edərək, gələcəkdə daha yaxşı günlər yaşayacağıq".

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET
Təsisçi və
baş redaktor:
Sevinc Seyidova
Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.
Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000
"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X
Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Cümhuriyyət bütün müsəlman Şərqinin Dan Ulduzu oldu

***Qədim və zəngin dövlətçilik ənənələrinə malik olan Azərbaycan xalqı özünün azadlığı və müstəqilliyi uğrunda daim mübarizə aparıb. Azərbaycan tarixinin əhəmiyyətli və yaddaqalan dövrlərindən olan XX əsrin əvvəllərində, dünyanın siyasi nizamının yenidən qurulduğu bir vaxtda istiqlaliyyətini elan etməsi idi. Həmin tarixdən düz 104 il keçir... Bu ərəfələr dövlətimiz, xalqımız Müstəqillik Gününü qeyd edir. Bu istiqamətdə "Həftə içi" qəzetinə müsahibə verən AMEA-nın müxbir üzvü, professor, Milli Məclisin deputatı Musa Qasımlı maraqlı məsələlərə diqqət çəkib.***

## Müstəqillik Günü

***- Musa müəllim, bu gün 104-cü ilini qeyd etdiyimiz Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının tariximizdəki yeri və rolu barədə nələri söyləyərdiniz?***

- Azərbaycan Xalq Cümhuriyyəti dövlətçilik tariximizdə müstəsna əhəmiyyət daşıyan yer tutur. 1905-1907-ci illər inqilabı və ondan sonra baş verən proseslər Azərbaycana da yeniliklər gətirdi. Bu dövrdə bütün dünyada gedən ictimai-siyasi hərəkatda iki böyük cərəyan - millətçilik, milli-azadlıq hərəkatı və sosial-demokratiya paralel olaraq gedirdi. Azərbaycan xalqının istəklərinin ifadəçiləri, milli-azadlıq hərəkatının öncülləri Difai, Müsavat, sosial-demokratiyanın təmsilçisi isə Hümmət oldu. Müxtəlif cərəyanları təmsil edən partiyaların mövcudluğu Azərbaycanda ictimai rəyin təkcə parçalanmasını deyil, eyni zamanda Azərbaycan siyasi tarixinin zənginliyini və çoxtərəfliliyini göstərir. Çarizm Azərbaycanda pantürkçüləri və panislamçıları, müstəqillik tərəfdarlarını amansızlıqla təqib edirdi. Birinci Dünya müharibəsi və ya o zaman deyildiyi kimi, Böyük müharibə xalqları özlərini mühafizə etmək və gələcək həyatlarını necə qurmaq barədə düşünməyə vadar edirdi. İri imperiyaların və müstəmləkə zülmü altında inləyən xalqların həyatlarının əvvəlki kimi olmayacağı artıq müharibənin əvvəllərindən aydın idi. Heç əbəs deyildir ki, müharibənin sonlarında yaranmış gərgin vəziyyətdə Azərbaycanın taleyi məsələsində azərbaycanlı ziyalılar Əlibəy Hüseynzadə, Əhməd bəy Ağayev, Məhəmməd Əmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov və b. müstəsna rol oynayaraq məsuliyyəti öz üzərlərinə götürdülər. Azərbaycanın gələcəyini düşünən şəxslər müxtəlif yollar aramağa başladılar. Millətin problemlərinin həllində xeyriyyə cəmiyyətlərinin özünəməxsus rolu var idi.

***- 1918-ci il may ayının 28-də Şərqdə ilk demokratik dövlət quruluşu kimi yaranmış Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın müstəqillik tarixinin başlanğıcı olmaqla milli dövlətçilik salnaməsini zənginləşdirməklə hansı təcrübəni dünyaya təqdim etdi? AXC cəmi 23 ay yaşadı, dünyaya nəyi sübut etmiş oldu?***

- Cümhuriyyətin qurulması və fəaliyyəti əhəmiyyətinə görə Azərbaycan sərhədlərini aşaraq daha geniş bir anlam daşıyırdı. Cümhuriyyət bütün müsəlman Şərqinin Dan Ulduzu oldu. Müsəlman dünyasına respublika məfhumunu, məfkurəsini, idarə üsulunu Azərbaycan xalqı gətirdi, müsəlman xalqlarına zülmətdən xilas olmağın yolunu göstərdi, ürəklərində ümid çırağı yandırdı. Heç əbəs deyil ki, Cümhuriyyət yaradıldıqdan sonra Sibir sürgünündə azərbaycanlılarla yanaşı zülm çəkən yüzlərlə ərəb, fars, əfqan və başqa xalqların nümayəndəsi Azərbaycanın vətəndaşı olmaq üçün müraciət etmişdilər. Bu gün Şərqdə müstəmləkəçiliyn və müstəmləkə zülmü altında inləyən xalqların olmaması eyni zamanda Cümhuriyyətin təsiri və Azərbaycan xalqının tarixi xidmətlərindən biridir. Cümhuriyyət dövründə qadınlara səs hüququ verildi. Cümhuriyyət olmasaydı, heç şübhəsiz, Azərbaycan SSR-də qurula bilməzdi.

***- May ayının 28-də Azərbaycan Xalq Cümhuriyyətinin qəbul etdiyi Konstitusiya aktı statusuna malik olan ilk hüquqi sənəd - İstiqlal Bəyannaməsi oldu. Orada müstəqil Azərbaycan dövlətinin yarandığı bəyan olundu, onun hakimiyyətinin şamil edildiyi ərazinin hüdudları müəyyənləşdirildi, həmçinin dövlətin əsas fəaliyyət prinsipləri öz əksini tapdı. 23 aylıq fəaliyyəti dövründə beş dəfə formalaşdırılan Cümhuriyyət Hökumətinin qısa bir müddətdə həyata keçirdiyi tədbirlər nə idi, xalqımızın tarixində hansı izləri buraxdı?***

- Azərbaycanın idarə forması Xalq Cümhuriyyəti idi. Yeni dövlət bütün qonşularla mehriban münasibətlər qurmaq istəyini bəyan etdi. Ölkə ərazisində yaşayan bütün xalqlar bərabər elan edildilər. Onlar üçün bərabər hüquqlar elan olundu. Azərbaycanın başında xalqın seçdiyi Milli Şura dayanırdı. Azərbaycan parlamentli respublika idi.



**Musa Qasımlı,**
AMEA-nın müxbir üzvü, professor,
Milli Məclisin deputatı

Cümhuriyyətin elan edilməsi ilə Azərbaycan xalqı XX əsrdə ilk dəfə olaraq Dövlət Millətinə çevrildi. Əgər Azərbaycan Rusiya tərəfindən xanlıqlar formasında işğal edilib imperiyanın tərkibinə ayrı-ayrılıqda qatılmışdısa, 1918-ci ildə onun tərkibindən tək millət, tək dövlət və tək bayraq olaraq çıxdı. Cümhuriyyətin ərazisi Cənub-Şərqi Zaqafqaziyanı əhatə edirdi və 113,9 min kv. km idi. Bunun 97,3 min kv. km mübahisəsiz, 16,6 min kv. km mübahisəli idi.

Bu zaman Cənubi Qafqazda 8 mln. 81 min 668 nəfər əhali yaşayırdı. Onun 4 mln. 617 min 671 nəfəri azərbaycanlı idi. Azərbaycan Xalq Cümhuriyyətinin əhalisinin 75,4 faizini və ya 3 mln. 481 min 889 nəfərini azərbaycanlılar təşkil edirdi. Digərləri müxtəlif dövrlərdə çarizmin köçürmə siyasəti nəticəsində Azərbaycana yerləşdirilən gəlmələr idi.

> "Cümhuriyyət xadimlərinin arzusu olan güclü Azərbaycan dövləti qurulub

Azərbaycan dünya demokratiyasına mühüm töhfə verdi. Azərbaycan Cümhuriyyəti qadınlara səsvermə hüququnu tanımaqla Qərb ölkələrinə nümunə oldu. Himn və bayraq qəbul edildi. Xüsusi xidmət orqanları yaradıldı. Sərhəd və Gömrük xidməti quruldu. Ordu yaradıldı. Türk dili (Azərbaycan dili) dövlət dili elan edildi. İbtidai və orta məktəblərdə işlərin ana dilində aparılması haqqında qanun qəbul edildi. Bakı Dövlət Universiteti yaradıldı. Təhsil və xalq maarifi, səhiyyə sahəsində tədbirlər həyata keçirildi. Ölkənin hər yerində müxtəlif səviyyəli məktəblər açıldı. Dərsliklər hazırlanmağa başladı. Xaricdən müəllimlər dəvət edildi. Mədəniyyətə xüsusi diqqət yetirildi. Teatrlar, kitabxanalar yaradıldı. Ana dilində mətbuat orqanları quruldu. Milli kadrların hazırlanmasına xüsusi diqqət yetirildi. 100 nəfər azərbaycanlı gəncin xarici ölkələrdə oxumağa göndərilməsi barədə qərar qəbul edildi.

Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin xarici siyasətinin başlıca məqsədi yeni yaradılmış dövləti tanıtmaq idi. Ona görə də hökumət yarandığı vaxtdan etibarən fəal xarici siyasət yürütməyə başladı. İlk növbədə Avropanın bir sıra ölkələrinə yeni bir dövlətin qurulması barədə məlumat göndərildi. Azərbaycan hökumətinin ilk addımlarından biri dekabrın 28-də qalib ölkələrin dövlət və hökumət başçılarının Paris sülh konfransına göndəriləcək sülh nümayəndə heyətinin tərkibini müəyyənləşdirmək oldu. 1920-ci il yanvarında Azərbaycanın dövlət müstəqilliyi böyük dövlətlər tərəfindən tanındı. Bu, Cümhuriyyət tarixinin üçüncü böyük hadisəsi olub, Azərbaycan xalqının iradəsinə hörmətin əlaməti idi.

Antanta ölkələri Azərbaycana yardım göstərilməsi barədə qərarlar qəbul etdilər. Azərbaycan dövləti beynəlxalq münasibətlər sisteminə daxil olmaq üçün ilk addımlar atdı. Xarici siyasətin mühüm istiqamətlərindən biri qonşu dövlətlərlə münasibətlər idi. Lakin bu sahədə çoxlu problemlər mövcud idi.

***- Azərbaycan Xalq Cumhuriyyətinin mövcudluğuna hansı maneələr yarandı və məkrli düşmən cumhuriyyətin sarsılması üçün hansı addımlara əl atdı və məqsəd nə idi?***



- 1920-ci ilin aprelində bolşevik Rusiyası Azərbaycanı işğal edərək müstəqil dövlətə son qoydu. Azərbaycan Sovet Sosialist Respublikası yaradıldı. Cümhuriyyət bir sıra amillər ucbatndan süquta uğradı. Ölkədə dövlət quruculuğu problemlərsiz deyildi. Aparılan islahatların ardıcıl deyildi. Aqrar islahat həyata keçirilmədi.

Cümhuriyyətin sosial dayaqları zəiflədi. Çarizm tərəfindən Azərbaycana köçürülmüş bir sıra gəlmə xalqlar dövlət müstəqilliyini tanımırdılar. Erməni təcavüzü dövləti zəiflədirdi. Erməni terrorunun və ərazilərin işğalının dayandırılması başlıca problemlərdən idi. Bütün bunlara baxmayaraq, Azərbaycan xalqı müstəqil dövlətin yanında idi. Cümhuriyyət daxili deyil, xarici amillər səbəbindən məğlub oldu.

Müstəqil Azərbaycan dövlətinin mövcudluğu üçün əlverişli beynəlxalq şərait yox idi. Kamalçı Türkiyə və bolşevik Rusiyasının Antanta ölkələrinə qarşı mübarizəsi nəticəsində müttəfiqə çevrilmələri regionda geosiyasi vəziyyəti dəyişdirdi. İşğalda Bakı nefti amili mühüm rol oynadı.

Rusiya bir neçə il əvvəl Bakını itirməklə böyük dövlət statusunu da itirmişdi. Həmin mövqeyi bərpa etmək üçün Azərbaycan yenidən işğal edildi.

***- Azərbaycan Xalq Cümhuriyyəti ənənələri bu gün necə yaşadılır və inkişaf etdirilir?***

- Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisidir. Cümhuriyyət tarixinin öyrənilməsi bəzi ibrət dərslərini almağa imkan verir. Bunun üçün ilk növbədə həmin dövrdə buraxılan səhvləri bilmək və onlardan müvafiq nəticələr çıxarmaq gərəkdir. Hər şeydən əvvəl, Cümhuriyyətin tarixi təcrübəsi göstərdi ki, dövlətin yaradılmasını liberal dəyərlərlə elan etmək olar, amma daxili və xarici təzyiqlərin daim olduğu və olacağı bir şəraitdə onu liberalizmlə qorumaq mümkün deyildir. Xalq öz dövlətinin mühafizəsinə, güclənməsinə və tərəqqisinə çalışmalı, onu qorumalı, maraqlarını hər şeydən uca tutmalıdır. Hakimiyyət qanadları arasında sıx birlik olmalıdır. Dövlət hakimiyyəti güclü, qüdrətli olmalıdır. Azərbaycan xalqının tərəqqisinin və qarşıya qoyduğu başlıca məqsədlərə nail olmasının təməlində güclü dövlət amili dayanır. Zəif dövlət və idarəçilik olan zamanlarda Azərbaycan xalqı daim geri gedib, böhranlara düşüb.

Azərbaycan Xalq Cümhuriyyəti dövrü tarixinin araşdırılmasına, milli tariximizə, milli-mənəvi dəyərlərimizin qorunub-saxlanılmasına və inkişafına dövlət səviyyəsində xüsusi diqqət yetirilir. 1998-ci ildə Cümhuriyyətin 80 illiyinin qeyd edilməsi barədə ümummilli lider, Prezident Heydər Əliyevin imzaladığı sərəncamından sonra bu sahədə xeyli işlər görüldü. Cümhuriyyət dövrü tarixinin sistemli araşdırılmasına başladılması məhz Heydər Əliyevin adı ilə bağlıdır. Məhz bu sərəncamdan sonra parlament iclaslarının stenoqramları nəşr edildi, kitab və monoqrafiyalar çapdan çıxdı.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə ölkəmizin paytaxtında Cümhuriyyət xadimlərimizin şərəfinə abidə ucaldılıb. Onların xatirəsi əbədiləşdirilir.

Cümhuriyyət xadimlərinin arzuları həyata keçirilib. Bir neçə misalların gətirilməsi deyilənləri təsdiq edə bilər. Cümhuriyyət xadimləri Azərbaycan neftinə dair beynəlxalq konsorsium yaradılmasını arzulasalar da, onu həyata keçirmək mümkün olmamışdı. Ancaq təbii sərvətimiz olan nefti ilk dəfə ulu öndər Heydər Əliyev milli sərvətə çevirdi və beynəlxalq konsorsium yaratdı.

***- 44 günülük müharibnədən sonra artıq biz Qərbi Zəngəzura qayıdırıq?..***

- Cümhuriyyət xadimlərinin arzusu olan güclü Azərbaycan dövləti qurulub. Bu günkü Azərbaycan Respublikası Cümhuriyyətin varisidir. İşğal altında olan ərazilərimiz azad edilib. Dövlət bayrağımız Şuşada və işğaldan azad edilən digər torpaqlarımızda dalğalanır. Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonları yaradılıb. Zəngəzur dəhlizi yaradılacaq. Azərbaycan nəqliyyat-kommunikasiya mərkəzinə çevrilir. Prezident İlham Əliyevin liderliyində Azərbaycan dövləti ərazisinin bir sıra ölkələrdən kiçik, əhalisinin isə az olmasına baxmayaraq, dünyanın nüfuzlu dövlətlərindən birinə çevrilib və birləşdirici gücdür. Cümhuriyyətin 104 illiyi zirvəsindən bir daha aydın olur ki, Azərbaycan dövlətinin və millətinin gözəl gələcəyi vardır. Gələcəyimizin başlıca formulunu Prezident İlham Əliyev konkret olaraq aşağıdakı kimi müəyyənləşdirib: "Yenilik, inkişaf, güc - bunlar əsas amillərdir. Bir də Vətən sevgisi".

**✍ Tahirə Qafarlı**

# Brüssel - Moskva rəqabəti





***Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin moderatorluğu ilə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında növbəti görüş Brüsseldə baş tutdu. Üçtərəfli danışıqlar prinsip etibarı ilə əvvəlki razılaşmaların sürətli icrasına yönələn addımların dəqiqləşdirilməsi xarakteri kimi dəyərləndirilsə də, iki görüşdən sonra heç də sülhə razılaşmayan, revanşist siyasətinə davam edən Ermənistanın bundan hansı nəticə çıxaracağlı maraqlıdır.***

## Gündəm

Artıq görüşün ilkin nəticəsi kimi hər iki dövlətdə sərhədlərin delimitasiyası və demarkasiyası ilə bağlı komissiyaların tərkibi təsdiqləndi və ilk təmaslar da reallaşdı. Nəticə olaraq 2-ci görüşün Moskvada, 3-cü görüşün isə Brüsseldə keçirilməsi razılaşdırıldı.

Lakin bir həqiqət var ki, Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesi yenə də Qərblə Rusiya arasında rəqabətə çevrilib. Hər iki tərəf prosesə nəzarəti əlində saxlamaq istəyir.



**Qabil Hüseynli,**
politoloq

Paşinyanın Qərbin layihəsi olduğu məlumdur. Ermənistan isə dövlət olaraq tamamilə Rusiyanın forpostudur və hakimiyyətdə kimin olmasından asılı olmayaraq zəruri qərarların verilməsi birbaşa Moskva ilə razılaşdırılır. Bu səbəbdən erməni baş nazir Paşinyan həmişə olduğu kimi yenə də, ikili oynayır və Putinlə Şarl Mişel (daha doğrusu, Avropa İttifaqına hazırda rəhbərlik edən Fransa prezidenti Makron) arasında manevrlər etməklə məşğuldur. Lakin tarixdə özgüvəni olmayan, asılı bir dövlətin iki güc arasında bu cür gedişlər etməsinin sonunun necə olduğunu göstərən kifayət qədər faktlar var.

Azərbaycan isə, bu prosesdə nə istədiyini dəqiq bilir. Bakı qalibdir. Bu statusun ona verdiyi imkanlardan istifadə edərək milli maraqlarına uyğun şərtlərini önə sürür, qalib tərəf kimi yeni reallıqların hamı tərəfindən qəbuluna nail olur. Bununla belə, Azərbaycan danışıqların harada, kimin moderatorluğu ilə keçirilməsinə heç bir etiraz bildirmir. Çünki, Ermənistandan fərqli olaraq müstəqil dövlətdir və öz gücünə bələddir, Azərbaycanın Avropa və Rusiya üçün nə dərəcədə vacib tərəfdaş olduğunu gözəl anlayır. Diplomatik gedişlərlə Ermənistanın manevr imkanlarını daraldır və moderatorların da onun mövqeyindən çıxış etməsinə nail olur.

Bu məsələdə ekspertlərin də rəyləri maraqlıdır.

■ **Qabil Hüseynli, politoloq:**

- Brüsseldə baş tutan üçüncü görüş Avropa Birliyini çox təcrübələndirdi. Avropa İttifaqı xüsusilə Rusiyanın pozuculuq fəaliyyəti ilə bağlı müəyyən tədbirləri həyata keçirdə biləcək. Danışıqlar aparılırsa, irəliyə doğru hərəkət var. Brüsseldə sülhyaratma prosesinin bütün parametrlərinə dair müsbət irəliləyişlər barədə razılıqlar əldə edilib. Və belə demək olar ki, bu prinsiplər həyata keçiriləcək.

İlkin rəylər onu göstərir ki, Rusiya Brüssel görüşünə qısqanc yanaşır. Və Antonov familiyalı rus politoloqu deyir ki, yaxşı olardı ki, bu razılaşmalar ya Soçidə, ya da Düşənbədə olaydı. Avropanın vasitəçi kimi səylərini qəbul etmək istəmirlər. Amma bu da onların deməyi ilə deyil. Qərb Rusiyanı həm beynəlxalq danışıqlardan, həm də bütövlükdə Cənubi Qafqaz da daxil olmaqla post-sovet məkanındakı bütün münaqişəli məsələlərin həlllində iştirakdan, o cümlədən də Azərbaycan və Ermənistan arasındakı müharibənin nəticələri ilə bağlı məsələlərdən uzaqlaşdırıb. Rusiya bu saat böyük fəlakət qarşısındadır. Ukrayna bu ölkəni diz çökdürmək üzrədir. Ona görə də, Rusiyanın Cənubi Qafqazala bağlı iddialı şəkildə çıxış etməsinin heç bir rolu, əhəmiyyəti olmayacaq.

İyul-avqust aylarında Brüsseldə 4-cü görüşün olacaq və orada danışıqların gedişinin monitorinqinin aparılacaq. Bu dəfə prosesə Rusiyanın müdaxilə etməsinə icazə verilməyəcək.

4-cü görüş görülmüş işlərin gedişi və nəticələrin həsr olunacaq.

Bu görüşdən sonra Azərbaycanın da Ermənistana təklif etdiyi 5 baza prinsipinə əməl edilməsinə imkanlar açılacaq. Çünki Azərbaycanın ərazi bütövlüyü məsələsi qəbul edilib, Qarabağın dağlıq hissəsində yaşayan ermənilərin təhlükəsizliyi məsələsi Azərbaycanın üzərinə qoyulub. Azərbaycan onların təhlükəsziliyinə tam təminat verib. Bu o deməkdir ki, əsas mübahisəli məsələ olan Qarabağ ermənilərinin taleyi məsələsi Azərbaycanın istədiyi kimi həll edilib.

■ **Sergey Markov, Siyasi Araşdırmalar İnstitutunun direktoru:**

- Delimitasiya və demarkasiya üzrə birgə komissiyanın işinə başlamaq məsələsi ötən ay müzakirə olunub və ötən ay da nəticə olmalı idi, lakin Bakının da bəyan etdiyi kimi, Ermənistan tərəfi iclasları iki dəfə pozdu. Bildiyimiz kimi, delimitasiya prosesinə başlamaq məsələsi hələ ötən ilin noyabrında Putin, Əliyev və Paşinyan arasında Soçidə keçirilən üçtərəfli görüşdən sonra gündəmə gəlib. Yeri gəlmişkən, ötən həftə Rusiya Xarici İşlər Nazirliyi Bakı ilə İrəvan arasında vasitəçilik üçün delimitasiya komissiyasının yaradılması barədə məlumat yayıb. Yalnız bir fakt var - Avropa İttifaqı bu gün nizamlanmanın əsas vasitəçisi olduğu təəssüratı yaratmağa davam edir, lakin o qədər də uğurlu deyil. Aİ-nin əsas vəzifəsi Rusiyanı Qarabağ münaqişəsinin həllində əsas danışıqlar aparan, sülhməramlı mövqelərdən sıxışdırmaq missiyasını davam etdirməkdir. Ona görə də Avropa İttifaqı müntəzəm olaraq "nəticələr" göstərərək fəal olmağa çalışır.

> “
>
> *Rusiyanın Cənubi Qafqazala bağlı iddialı şəkildə çıxış etməsinin heç bir rolu, əhəmiyyəti olmayacaq*
>
> *Azərbaycan lazım gələrsə, Üçüncü Qarabağ Müharibəsini aparmağa və bütün ərazini tamamilə geri qaytarmağa hazırdır, lakin hələlik bunu hərbi yolla yox, diplomatik təzyiqlə etməyə üstünlük verir*

Avropa İttifaqı bu gün xarici siyasətdə Aİ-nin liderlərindən biri olan Fransanın ermənipərəstliyini müvəqqəti olaraq gizlədərək, özünü Azərbaycana münaqişənin nizamlanmasına nail olmaq istəyən neytral vasitəçi kimi təqdim edərək manevr etməyə çalışır. Amma həlledici məqamda bu erməniрərəst fikirlər ortaya çıxacaq. Azərbaycan bunu çox gözəl başa düşür və çox diqqətli olacaq. O, Avropa Birliyinə maksimum hörmətini ifadə edir, lakin onun birbaşa əhəmiyyətli rol oynamasına imkan verməyəcək. Aİ Ermənistan-Azərbaycan prosesində əbədi qalacağı kombinasiya tapmağa çalışacaq.

Rusiya həqiqətən də Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşmasında maraqlıdır, çünki Rusiya Federasiyasında ən böyük azərbaycanlı və erməni icmaları var. Moskva öz sərhədlərində sülh, əməkdaşlıq və Cənubi Qafqazda inkişafda maraqlıdır. Moskva gələcəkdə Avrasiya İqtisadi Birliyinə yeni ölkələrin qoşulmasını istərdi. AB-nin məqsədi isə ancaq Rusiyanı bezdirməkdir. Rusiya Federasiyası və Aİ-nin tamamilə fərqli motivləri var.



**Sergey Markov,**
Siyasi Araşdırmalar
İnstitutunun direktoru

Üçtərəfli görüşün yekunları üzrə Şarl Mişelin bəyanatı, məncə, bir daha göstərir ki, bu danışıqlarda qəti mövqe tutan Azərbaycandır. Biz bunu əvvəllər də görmüşük. Yəni, rəsmi Bakının xoşuna gəlməyəcək təxribat xarakterli ifadələr yoxdur. Xatırladım ki, İsrailin baş naziri Ariel Şaron "buldozer"ə bənzədilib, mən burada da belə bir müqayisə aparmaq istərdim - Azərbaycan prezidenti də qarşısına məqsəd qoyub və ona nail olacaq, o, sülh yolu ilə irəliləyir və heç kimin şübhəsi yoxdur ki, nəhayət bütün Qarabağ Azərbaycanın tam qanuni suverenliyi altına qayıdacaq. Bu mütləq olacaq. Bunun üçün güclü diplomatik resurslar və güclü ordu var. Azərbaycan lazım gələrsə, Üçüncü Qarabağ Müharibəsini aparmağa və bütün ərazini tamamilə geri qaytarmağa hazırdır, lakin hələlik bunu hərbi yolla yox, diplomatik təzyiqlə etməyə üstünlük verir.

Ümumiyyətlə, hesab edirəm ki, Avropa İttifaqı öz bəyanatı ilə Qarabağın Azərbaycanın bir hissəsi olduğunu qəbul edir. Eyni zamanda Qarabağ ermənilərinin xüsusi statusuna da eyham vurur. Ermənistan çalışır ki, Qarabağ ən yüksək səviyyədə muxtariyyət statusu alsın. Belə ki, bu ərazi hətta Azərbaycanın tərkibində olsa da, demək olar ki, müstəqilliyə malik olsun. Amma bu heç vaxt olmayacaq, Azərbaycan heç vaxt buna getməyəcək. Bir vaxtlar faciəyə - Dağlıq Qarabağ münaqişəsinə səbəb olan separatizm meyilləri idi. Azərbaycan belə risklərə getməyəcək.

Hər halda, biz hələlik Aİ-nin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan arasında aparılan danışıqlarda qlobal nəticə görmürük. Və Ermənistan faktiki olaraq bir şeyi deyib, əməldə isə başqa bir şey edərək, Qarabağın statusu ilə bağlı Azərbaycanın şərtləri ilə razılaşmasa, Azərbaycan böyük ehtimalla, sadəcə olaraq, İrəvanla sazişləri uzatmaya bilər. Nəticədə Rusiya sülhməramlıları bölgəni tərk edəcək, Azərbaycan ordusu isə hazırda erməni separatçılarının nəzarətindo olan əraziləri geri alacaq.

✍ ***Azad***

## Festival



***Bu gündən "Teknofest Azərbaycan" festivalı start götürür. Festival mayın 29-dəkdavam edəcək. Bakıda "Teknofest" festivalı Türkiyənin Sənaye və Texnologiyalar Nazirliyi, Türkiye Teknoloji Takımı Vakfının (T3 Vakfı) təşkilatçılığı, Azərbaycan Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tərəfdaşlığı ilə keçirilir. Eyni zamanda Bakıda "Teknofest" in "prodakşn" ofisi fəaliyyət göstərir.***

# "Teknofest Azərbaycan" başlayır



Ofisin tam heyəti azərbaycanlı mütəxəssislərdən ibarətdir. "Teknofest" tədbiri Türkiyə Respublikası Sənaye və Texnologiya Nazirliyinin və Selçuk Bayraktarın rəhbərlik etdiyi Türkiye Teknoloji Takımı Vakfının (T3 Vakfı) birgə təşkilatçılığı və qardaş ölkənin 60-dan çox dövlət qurumu, ali məktəbi və özəl şirkətinin tərəfdaşlığı ilə 2018-ci ildən etibarən hər il keçirilir.

Məqsəd Türkiyədə aviasiya, kosmik sənaye, rəqəmsal iqtisadiyyat kimi sahələrin gənclər arasında təbliği, bu sahələrdə sahibkarlığın təşviq edilməsi, festival çərçivəsində təşkil olunan yarışlar vasitəsilə gənc mühəndislərin bilik və bacarıqlarının üzə çıxarılması, eləcə də milli texnologiyaların geniş ictimaiyyətə təqdim olunmasıdır.

Artıq bir neçə gündür ki, festivala hazırlıq çərçivəsində Dənizkənarı bulvar ərazisində təyyarələrin və vertolyotların sınaq uçuşları həyata keçirilir. Sözügedən uçuşlar festival ərəfəsində və günlərində də davam edəcək.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da bu məqsədlə Azərbaycana səfər edəcək. Məlumata əsasən, R.T.Ərdoğan mayın 26-29-da Azərbaycanda keçiriləcək "TEKNOFEST Azərbaycan" Aerokosmik və Texnologiya Festivalında iştirak edəcək. Festivalda həmçinin Türkiyənin sənaye və texnologiyalar naziri Mustafa Varank və "Baykar Makina" şirkətinin texniki direktoru Səlçuk Bayraktar da iştirak edəcək.

### Gənclərə mesaj

■ **Hərbi ekspert Elxan Şıxəliyev hesab edir ki, "Teknofest" festivalında 44 günlük Vətən Müharibəsində qələbənin rəmzlərindən birinə çevrilmiş "Bayrakdar-2" və digər pilotsuz uçuş aparatlarının sərgilənməsi gənc nəslə ötürülən bir mesaj olacaq.**

"Mesaj ondan ibarətdir ki, coğrafiya etibarilə Azərbaycan öz ərazilərinin təhlükəsizliyini uzun müddət sığortalamaq üçün güclü orduya malikdir. Güclü orduya malik olmaq üçün yeni nəsil texnologiyalarla dəstəklənən silahların silahlanmaya daxil olması lazımdır. Həm silahların silahlanmaya daxil olması, eyni zamanda, beyin mərkəzləri olaraq yeni nəsil texnologiya ilə dəstəklənən silahların istehsalı gəncliyimizə mesaj verəcək. Yəni beyin mərkəzləri olaraq pilotsuz aparatların araşdırılması və icad olunmasına başlaya bilərik. Türkiyə Respublikasının Silahlı Qüvvələri ilə Bayrakdar şirkətinin təcrübələri var və istənilən halda işğaldan azad olunmuş rayonlarımızda bu texnologiya dəstəkli sənaye mərkəzlərinin yaradılması mümkün ola bilər.

"Teknofest" gəncliyimizə mesaj verəcək ki, Azərbaycanın gələcək təhlükəsizliyi intellektual kəsimin hazırlığından keçəcək. Bu da gəncliyimizi təşviq edəcək. Yəni intellektualların hərb sisteminə yönləndirilməsi çox mühüm məsələdir.

"Teknofest"dən sonrakı mərhələdə bizim gənc intellektual kəsimdə yol xəritəsi müəyyən edilmiş olacaq. Gələcək texnologiyalarındır və texnologiyalarla dəstəklənən silahlarındır. "Teknofest" bu mesajı verəcək və bunun çox uğurlu bir sərgi olacağını düşünürəm".



### Yol polisi sürücü və piyadalara müraciət edib

Bakı Şəhər BPİ DYPİ "TEKNOFEST"lə bağlı avtomobil sürücülərinə və paytaxt sakinlərinə müraciət edib. Müraciətdə deyilir: "2022-ci ilin may ayının 26-dan 29-dək 4 gün boyunca Bakı Kristal Hall və onun ətrafı Dənizkənarı Bulvarda regionun ən böyük tədbiri olan "TEKNOFEST" Aerokosmik və Aviasiya Festivalı keçiriləcək. Festivalın keçiriləcəyi əraziyə 08.30-18.00 aralığında və əks istiqamətdə 09.00-21.00 arası avtobus xidməti təşkil edilib.

Tədbiri canlı izləmək üçün tamaşaçılar ödənişsiz olaraq paytaxtın 28 may metrostansiyası yaxınlığından birbaşa Bayraq Meydanı ərazisinə və geriyə "Baku Bus" MMC-nin avtobusları ilə hərəkət edəcəklər.

Eyni zamanda əraziyə sərnişinlərin daşınmasında "Bakı Taksi" MMC-yə məxsus olan ekoloji təmiz taksilər də hərəkət edəcəklər. Bununla əlaqədar həmin istiqamətə müasir texnikaların, digər avadanlıqların gətirilməsi eləcə də ölkəyə gələn qonaqların qarşılanması, onların yerləşdirilməsi və bu tədbirin tam təhlükəsiz şəkildə başa çatdırılması üçün bildirilir ki, vəziyyətdən və şəraitdən aslı olaraq Dənizkənarı Bulvar və Kristal Holl istiqamətində avtomobillərin hərəkətinə fasilələrlə məhdudiyyət qoyula və istiqamətin dəyişdirilməsi nəzərdə tutula bilər. Odur ki, Festival iştirakçılarının rahat və fasiləsiz hərəkətinin təşkil edilməsi məqsədi ilə tədbir zamanı şəxsi avtomobillərlə mümkün qədər az, içtimai nəqliyyat vasitələrindən istifadəyə üstünlük verilməsi tövsiyə edilir".

### Metropoliten iş rejiminə dəyişikliklər edəcək

**Türkiyənin "Teknofest" Aviasiya, Kosmos və Texnologiya Festivalının 2022-ci il may ayının 26-29-u aralığında ilk dəfə Azərbaycanda keçirilməsi və bu tədbirlərə xüsusi marağı nəzərə alaraq, Bakı metropoliteninin iş rejimində də müvafiq dəyişikliklər ediləcək.**



Metropolitendən hafta.az-a verilən məlumata görə, "Teknofest Azərbaycan" tədbiri, əsasən, "Bakı Kristal Zalı" və Dənizkənarı bulvar ərazisində keçiriləcək. Bu səbəbdən Bakı metropoliteninin "28 May", "Sahil", "İçərişəhər" və "Nizami" stansiyalarının gücləndirilmiş iş rejimində müvafiq dəyişikliklər ediləcək. Tədbirlə əlaqədar bu stansiyalarda əlavə işçi personalı ayrılmaqla xüsusi növbətçilik cədvəli tərtib olunacaq.

Festival iştirakçılarının və izləyicilərinin rahatlığını təmin etmək məqsədilə tədbirin keçiriləcəyi 28 və 29 may tarixləri Azərbaycanda bayram və istirahət günləri olsa da, qatarların hərəkətinin, adi iş günlərində olduğu kimi, optimal qrafik üzrə tətbiq edilməsi qərara alınıb. Bununla yanaşı, festival günlərində də ehtiyat qatarlar daim hazır saxlanılacaq.

Sərnişin axınının mümkün sıx saatları tədbirlərin proqramına uyğun müəyyən olunub. Buna müvafiq olaraq ehtiyat qatarların xəttə buraxılmasının nizamlanmış qaydası planı tərtib edilib. "Bakmil" stansiyasına və əks istiqamətdə hərəkət edən sərnişinlərin diqqətinə çatdırılır ki, qeyd edilən günlərdə qatarların hərəkət cədvəli iş günləri qrafikinə uyğun tənzimlənəcək.

Festivalın təşkilat komitəsi ilə əldə olunmuş qarşılıqlı razılıq və əməkdaşlıq planına əsasən tədbirlərin keçiriləcəyi günlərdə "28 May", "Sahil" və "İçərişəhər" stansiyalarında ikinövbəli olmaqla, könüllülər sərnişinlərin xidmətində olacaq.

✍ ***Azad Əliyev***

# Çeşidlənən tullantılar

## Layihə

***Bu gün bütün dünyada ekoloji siyasətin əsas istiqamətləri və aparılan tədbirlər ekoloji vəziyyətin yaxşılaşdırılmasına, ətraf mühitin mühafizəsinə və təbii sərvətlərdən səmərəli istifadəyə yönəlib. Qeyd edək ki, bu yöndə tədbirlər Azərbaycanda da daim diqqət mərkəzindədir. Məsələn, Abşeron regionunda ekoloji problemlərin planlı surətdə həll edilməsi məqsədilə Prezident İlham Əliyev tərəfindən 2006-cı il 28 sentyabr tarixində "Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün Kompleks Tədbirlər Planı" təsdiq edilib.***



Bu sənədin Bakı və Abşeron yarımadasının ekoloji durumunun sağlamlaşdırılmasında böyük əhəmiyyəti var. Sənəddə ətraf mühitin vəziyyətinin yaxşılaşdırılmasına yönəldilmiş bütün əsas fəaliyyət istiqamətləri öz əksini tapıb. Abşeron yarımadasında məişət tullantılarının toplanması, daşınması, yerləşdirilməsi ilə bağlı məsələlərin həll olunması da bu işlər sırasındadır. Dövlət başçısının "Bakı şəhərində məişət tullantıları ilə bağlı idarəetmənin təkmilləşdirilməsi haqqında" 2008-ci il 6 avqust tarixli Sərəncamına əsasən təsis olunan "Təmiz Şəhər" ASC Bakı ərazisində bərk məişət tullantılarının yerləşdirilməsi və zərərsizləşdirilməsinin səmərəli şəkildə və müasir standartlara uyğun qurulması, tullantıları təkrar emala cəlb etməklə şəhərin ekoloji vəziyyətinin yaxşılaşdırılması işlərini həyata keçirir. ASC-nin mühüm vəzifələrindən biri qeyd edilən tədbirləri uğurla reallaşdırmaq, həm də bazar iqtisadiyyatı prinsipləri əsasında inkişafa töhfə verməkdir.

### İstehsal üçün ucuz xammal formalaşır

**Onu da vurğulayaq ki, "Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün Kompleks Tədbirlər Planı"nın icrası çərçivəsində Bakı bərk məişət tullantılarının yandırılması zavodu yaradılıb.**

Zavod istehsal gücünə görə Şərqi Avropa və MDB məkanında bu tipli ən iri müəssisə hesab olunur. Müəssisə dördüncü nəsil (4G) texnologiyaların tətbiqi ilə Avropa İttifaqının ətraf mühitin mühafizəsi sahəsində ən sərt normativlərinə tam cavab verəcək şəkildə qurulub. İllik gücü 500 min ton məişət və 10 min ton tibbi tullantı olan zavodda tullantıların yandırılması nəticəsində 100 min ev təsərrüfatını elektrik enerjisi ilə təmin etmək mümkündür.

Dövlət başçısının "Bakı şəhərində məişət tullantıları ilə bağlı idarəetmənin təkmilləşdirilməsi haqqında" imzaladığı Sərəncamla Balaxanı şəhər tullantılarının zərərsizləşdirilməsi poliqonu 2009-cu ildə "Təmiz Şəhər" ASC-yə təhvil verilib. İqtisadiyyat Nazirliyi ilə Dünya Bankı arasında "Bərk məişət tullantılarının vahid idarəçiliyi" layihəsi icra olunaraq ekoloji problemin müşahidə edildiyi 120 hektar ərazidə ətraf mühitə zərərli təsirlər əhəmiyyətli dərəcədə azaldılıb. 1963-cü ildən fəaliyyət göstərən Balaxanı poliqonu beynəlxalq ekoloji standartlara və texniki normalara cavab verən yeni sanitar poliqona çevrilib. Poliqonda tullantı daşıyan maşınlar davamlı olaraq yuyulur və dezinfeksiya edilir. Məntəqədə maşınlar yuyulmaqla yanaşı, bakteriya və virusları neytrallaşdırmaq üçün nəzərdə tutulan maddələrdən istifadə edilərək təmizlənir. Yuyulma zamanı sərf olunan su isə müxtəlif dezinfektantlar vasitəsilə bir neçə mərhələdə təmizlənərək yenidən istifadəyə yönləndirilir.



**Faiq Mütəllimov,**
ETSN-in Ekoloji siyasət şöbəsinin müdiri

Məlumat üçün həmçinin qeyd edək ki, məişət tullantılarının çeşidlənməsi və ölkədə təkrar istehsalı, sahibkarlığın inkişaf etdirilməsi məqsədilə 2012-ci ildə "Təmiz Şəhər" ASC-nin Balaxanı bərk məişət tullantılarının çeşidlənməsi zavodu istifadəyə verilib. Alman texnologiyası əsasında qurulan zavod il ərzində 200 min ton tullantı qəbul etmək gücündədir.

2012-ci ildə Prezident İlham Əliyevin açılışında iştirak etdiyi müəssisə "yaşıl iqtisadiyyat"ın inkişafında və Balaxanı Sənaye Parkının rezidentlərinin xammalla təmin edilməsində mühüm rol oynayır.

Ekosahibkarlığın inkişafına dəstək verən zavodda çeşidləmənin aparılması nəticəsində təkrar emal üçün yararlı materiallar ayrılır ki, bu da tullantıların ümumi həcmini azaldır, eləcə də Balaxanı Sənaye Parkında istehsal üçün ucuz xammal formalaşır. Ölkədə təkrar istehsal sahəsinin inkişafında mühüm rol oynayan zavodun yaradılması təbii resurslara, enerjiyə qənaət edilməsinə, "yaşıl biznes"in genişlənməsinə, ən önəmlisi isə ətraf mühitə mənfi təsirlərin azaldılmasına xidmət edir.

> *Azərbaycanda tullantıların çeşidlənməsi o qədər də yüksək səviyyədə deyil*

### Azad olunmuş ərazilərdə tullantılar müasir üsullarla idarə ediləcək

■ **Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Ekoloji siyasət şöbəsinin müdiri Faiq Mütəllimov sözlərinə görə, hazırda ekoloji siyasətin əsas istiqamətləri və aparılan tədbirlər ekoloji vəziyyətin yaxşılaşdırılmasına, ətraf mühitin mühafizəsinə və təbii sərvətlərdən səmərəli istifadəyə yönəlib:**

"Bu yöndə tədbirlər daim diqqət mərkəzindədir. Əsas məqsədimiz ölkə ərazisində yüksəkkeyfiyyətli ekoloji mühit və yaşıl enerji məkanı yaratmaqdır. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təşəbbüsü, eyni zamanda, beynəlxalq təşkilatlarla əməkdaşlıq çərçivəsində bir çox tədbirlər həyata keçirilir. Hazırda plastik tullantıların azaldılması və təkrar emalı üçün fəaliyyət planı həyata keçirilir. Bu plana əsasən 37 şəhər və rayonda 250-dən çox tullantı konteynerləri quraşdırılıb. Burada əsas məqsəd plastik tullantıların çeşidlənməsi və təkrar emala verilməsidir. Müxtəlif layihələr çərçivəsində bu proses davam edir. Bakı şəhəri Nərimanov rayonunda əvvəlcə pilot layihə kimi başlayan iki fərqli konteynerlər yerləşdirilib. Bu konteynerlər təkrar emalı mümkün olan tullantılar üçün nəzərdə tutulur. Tullantılar çeşidləmə zavoduna gedir, orada daha dəqiq kateqoriyalara bölünür. Azərbaycanda çeşidləmə praktikası yeni olsa da təkrar emalda maraqlı olan şirkətlər kifayət qədərdir". Faiq Mütəllimov, həmçinin bildirib ki, Qarabağ ərazisində tullantıların idarə olunması sisteminin quraşdırılması üçün ilkin addımların atılmasına star verilib: "İşğaldan azad olunmuş ərazilərdə tullantıların müasir üsullrla idarə edilməsi sisteminin qurulması işinə başlanılıb. Hazırda həmin ərazilərdə tullantıların idarə edilməsi müvəqqəti sistemlə aparılır. Yaxın müddətdə artıq həmin ərazilərdə tullantıların necə idarə edilməsi ilə bağlı ilkin konsepsiya sənədi olacaq".

Şöbə müdiri eyni zamanda deyib ki, Azərbaycanda tullantıların çeşidlənməsi o qədər də yüksək səviyyədə deyil: "Xüsusən də bu, Bakı şəhərində həyata keçirilir. Bir neçə pilot layihələr var. Amma ümumilikdə işə evdən başlamalıyıq. Biz bilməliyik ki, hansı tullantılar təkrar istehsala yararlıdır. Regionlarda da bu sahədə layihələr geniş şəkildə aparılmalıdır".

### Təkrar emal üçün toplanılan xammal ehtiyatının həcmi artıb

**Yeri gəlmişkən, artıq 3 ildən çoxdur ki, Bakı şəhərində Bakı Şəhər İcra Hakimiyyəti və Böyük Britaniyanın Mott MacDonald şirkəti ilə birgə hazırlanmış pilot layihənin - bərk məişət tullantılarının yığılması, daşınması və çeşidlənməsinin ən müasir səviyyədə təşkil edilməsi layihəsinin icrası həyata keçirilir.** Əvvəlcə pilot layihə kimi Nərimanov rayonunda başlanan layihənin yüksək səviyyədə icrası nəticəsində xeyli irəliləyişlər əldə olunduğundan müqavilə şərtlərinə uyğun olaraq keçən il mərhələli şəkildə daha 3 paytaxt rayonu - Nizami, Nəsimi və Yasamal rayonları da bu layihəyə qoşulub. Layihənin tətbiqi və gedişatının monitoringi məqsədi ilə mütəmadi olaraq ayrıca hər bir rayon üzrə toplanan çeşidlənmiş tullantıların tərkibi və çəkisi apaşdırılır, nəticələr əvvəlki müddətlə müqayisə edilir. Onu da deyək ki, Bakının Nizami, Nəsimi, Yasamal və Nərimanov rayonlarında pilot layihə çərçivəsində tullantılar üçün yaşıl və narıncı rəngli konteynerlər (zibil qabları) quraşdırılandan sonra tullantıların təkrar emalı üçün toplanıl□an xammal ehtiyatının həcmi artıb. "Təmiz Şəhər" ASC-nin məlumatına görə, tullantıların düzgün idarə olunmasının ən vacib mərhələsi çeşidləmədir. Bərk məişət tullantılarının çeşidlənməsi və təkrar emalı biznesinin inkişaf etdirilməsi müasir dövrün əsas tələblərindəndir. İllik 200 min ton tullantı qəbul etmək gücündə olan Balaxanı Bərk Məişət Tullantılarının Çeşidlənməsi Zavodunda çeşidləmənin aparılması nəticəsində təkrar emal üçün yararlı olan kağız, şüşə, plastik, metal və digər xammallar ümumi kütlədən ayrılaraq təkrar emal müəssisələrinə göndərilir. Bunlar tullantıların ümumi həcmini azaltmaqla yanaşı, Balaxanı Sənaye Parkı üçün ucuz xammal bazası formalaşdırır və ölkədə təkrar emal işinin qurulması üçün əlverişli şərait yaradır və bununla da təbii ehtiyatlara, enerjiyə qənaət olunur.

✍ **Sevinc**

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi
Ekologiya və ətraf mühitin mühafizəsi

## XƏBƏRİNİZ OLSUN...



■ Böyük Britaniyanın Baş naziri Boris Conson koronavirusla bağlı məhdudiyyətlər zamanı şənliklər barədə hesabatın yayımlanmasından sonra istefa verməkdən imtina edib. Eyni zamanda, B. Conson bu məsələ ilə bağlı kimisə işindən azad etməkdən də imtina edib.

■ Rusiya Prezidenti Vladimir Putin general-mayor Aleksandr Kurenkovu ölkənin fövqəladə hallar naziri təyin edib. Putin bununla bağlı fərman imzalayıb. Kurenkov buna qədər Rusiya Milli Qvardiyasının direktorunun müavini vəzifəsində çalışıb.

■ Ermənistan və Azərbaycan arasında sərhədlərin delimitasiyası üzrə Komissiyanın iclası gələn həftə Moskvada keçiriləcək. Bu barədə məlumatı Rusiya xarici işlər nazirinin müavini Andrey Rudenko açıqlayıb.



■ ABŞ Cənubi Qafqazda sülhün əldə edilməsinə kömək üçün təmaslara davam edəcək. Bu barədə ABŞ Dövlət katibi Entoni Blinken "Twitter"də bildirib. "Mən dünən Ermənistan Baş naziri Nikol Paşinyanla Ermənistanın Azərbaycan və Türkiyə ilə müzakirələrində müsbət impulsun əldə etməsini ABŞ-ın necə dəstəkləməsi barədə danışdım. ABŞ Cənubi Qafqazda sülhün əldə edilməsinə kömək üçün təmasa davam edəcək", - Dövlət katibi qeyd edib.

■ "Barselona"nın prezidenti Xuan Laporta maraqlı açıqlama verib. Katalon klubunun rəhbəri PSJ ilə müqavilə imzalayan futbolçuların köləliyə imza atdıqlarını bildirib:

■ "Son 40 ildə peşə məktəbində qız oxumayıb". Bunu Cəlilabad Dövlət Peşə Təhsili Mərkəzinin direktoru Etibar Sadıqov bildirib. Onun sözlərinə görə, mərkəzin yeni binasının tikintisinə 2019-cu ildən başlanıb. Hazırda məktəbdə 450 nəfər təhsil alır. 2018-ci ildə peşə məktəbinə 19 qız, 1 oğlan qəbul olub. Hazırda məktəbdə 51 qız tələbə əsasən, üzlükçü, dizayner, tikişçi peşələri üzrə təhsil alırlar.

# Təbrik məktubundakı mesajlar

***ABŞ Prezidenti Cozef Baydenin Müstəqillik Günü münasibətilə Azərbaycan Prezidenti İlham Əliyevə ünvanladığı təbrik məktubunda yer alan məqamlar iki ölkə arasında münasibətlərin mövcud durumu və Vaşinqtonun nəzərində Azərbaycanın hansı əhəmiyyətə malik olduğunu göstərir. Politoloq Elxan Şahinoğlu hafta.az-a bildirib ki, Azərbaycan uzun illərdir ABŞ-la dörd müxtəlif istiqamətdə - enerji, təhlükəsizlik, bölgədə sabitlik və insan haqları müdafiəsi ilə bağlı ikitərəfli əməkdaşlıqlar qurub və bu əməkdaşlıqlar davam edir.***

## Aktual

Onun sözlərinə görə, Rusiya Ukraynaya qarşı işğalçı müharibəyə başladıqdan sonra Cənubi Qafqaz ölkələrindən Ukraynaya dəstəyi ən çox Azərbaycan verib. Azərbaycandan Ukraynaya verilən humanitar yardımlar, neftin göndərilməsi və sair, bütün bunlar Amerika tərəfindən dəyərləndirilir. Çünki Amerikanın da Ukraynaya dəstəyi var. Məhz məktubunda da Cozef Bayden bunu xüsusilə vurğulayır. Politoloq təəssüflə qeyd edib ki, buna baxmayaraq, Amerikada ermənipərəst dairələr Azərbaycana qarşı sərt qanunların tətbiqinə çalışırlar.

"Ermənistanın Ukraynaya dəstəyi yoxdur. Amma ABŞ -da bu ölkəyə qarşı münasibət daha yumşaqdır. Azərbaycan diplomatiyası xüsusilə qabartmalıdır ki, Ukraynaya dəstək verən Azərbaycandır, Ermənistan Rusiyanın quludur və Ukraynaya da heç bir dəstək vermir. Baydən Azərbaycanın önəmiu vurğulayır, amma biz istərdik ki, bu onların siyasətində də özünü göstərsin.

Çünki ABŞ -da diplomat və konqresmenlər bəzən erməniperəst mövqedən də çıxış edirlər". E.Şahinoğlu bundan əvvəl də Donald Trampın Azərbaycan Prezidentinə strateji əməkdaşlığı özündə ifadə xeyli məktublar göndərdiyini qeyd edib. "Təbii ki, ABŞ dünyanın supergücüdür və Azərbaycan özü də Amerika ilə ikitərəfli əməkdaşlığı genişləndirməkdə maraqlıdır".

ABŞ Prezidenti Cozef Baydenin Azərbaycan Prezidenti İlham Əliyevə ünvanladığı məktubda bir neçə əsas məsələ diqqət çəkir. Qeyd edək ki, orada ABŞ Prezidentinin 30 il ərzində enerji mənbələrinin şaxələndirilməsi və beynəlxalq təhlükəsizlik sahələrində Azərbaycanla əməkdaşlığa verdiyi yüksək dəyərdən söz açılır. Eləcə də Azərbaycanın enerji resurslarının Avropa və dünya bazarlarına təhlükəsizliyinin təmin olunması və sabitləşdirilməsində önəmli rol oynamasına verilən mühüm əhəmiyyəti qeyd edilib.

■ **Politoloq Natiq Cəfərli hafta.az-a bildirib ki, son dövrlər dünyada baş verən hadisələr, o cümlədən Rusiya-Ukrayna müharibəsi, sanksiyalar enerji məsələsinin aktuallığının daha da artmasına səbəb olub.**

İqtisadçı ekspert hesab edir ki, alternativ enerji məsələləri daha çox aktuallaşıb. Məhz bu kontekstdə Azərbaycanın geosiyasi və enerji müstəvisində önəmi artıb. "Çünki həcmi az olsa da,



Azərbaycan Qərb, Avropa üçün əlavə qaz mənbələrindən biridir. ABŞ bu mənada həmişə Azərbaycanın iqtisadi, logistik layihələrinə dəstək göstərib.

Həqiqətən də son zamanlar Azərbaycanın enerji təhlükəsizliyi məsələlərində əhəmiyyəti artıb". Politoloq hesab edir ki, ABŞ, ümumiyyətlə digər qərb dövlətləri Azərbaycan-Ermənistan münasibətlərinin tezliklə tənzimlənməsində də maraqlıdırlar. Onun fikrincə, burda başqa bir önəmli faktor bundan ibarətdir ki, bu məsələlərdə Rusiya həddən artıq paya malikdir.

"Yeni Rusiya moderatorluq funksiyasını tamamilə öz üzərinə götürüb. Ona görə də, ABŞ təşəbbüsü öz əlinə almağa, ən azından bu prosesdə daha yaxından iştirak etməyə çalışır. Bu nöqteyi-nəzərdən Azərbaycan-Ermənstan sərhədlərinin tənzimlənməsi, sərhəd məsələsinin həlli və digər məsələlərdə ABŞ-ın iştirakının artırılmasına çalışır. Çünki Vaşinqtonun təsir imkanlarının artması Rusiyanın bölgədə neytrallaşdırılmasına səbəb ola biləcək faktordur".

N.Cəfərli bildirir ki, məsələyə qlobal baxanda bu, Rusiyanın bölgədə həddən artıq olan gücünü azaltmağa imkan yarada bilər.

"Bu, Azərbaycan üçün də sərfəlidir. Rusiyanın təkbaşına qərarvermə mexanizminə malik olması Azərbaycanın da maraqlarına uyğun deyil. Ona görə, ABŞ-la bu məsələdə sıx işləməyə dəyər. Azərbaycan Hökuməti həm Brüssellə, həm Vaşinqtonla daha sıx əməkdaşlıq şəraitində bu məsələlərin həllində onların yardımına, iştirakına çalışır. Müəyyən qədər Azərbaycanın dövlət maraqları çərçivəsində onların iştirakını təmin edir. Yəni, bu da doğru yanaşma, doğru istiqamətdir".

"Azərbaycan müstəqilliyini yenidən bərpa edəndən sonra iki ölkə arasında diplomatik, siyasi əlaqələr quruldu və formalaşdı. 1994-cü ildə ABŞ şirkətlərinin də qatıldığı "Əsrin Müqaviləsi"nin imzalanması bu əlaqələri yeni mərhələyə daşıdı. Bundan sonra tərəflər arasında münasibətlər çoxşaxəli hal almağa başladı".

■ **Bunu hafta.az-a politoloq Samir Hümbətov ABŞ Prezidenti Cozef Baydenin Azərbaycan Prezidenti İlham Əliyevə ünvanladığı məktubunda diqqət çəkən məqamlara münasibət bildirərkən deyib.**

Politoloq hesab edir ki, burada ABŞ -ın Azərbaycan və Ermənistan arasında diplomatik təmasların intensivləşdirilməsinin bütün Qafqaz və transxəzər regionunun çiçəklənməsinə imkan verəcəyi qənaətinin önə çəkilməsi və bu anlamda Azərbaycanın sülh təşəbbüslərini dəstəkləməsi, iqtisadi, nəqliyyat və insanlararası əlaqələrin qurulmasının öz əksini tapması təsadüfi ola bilməz.

"Rusiya-Ukrayna müharibəsinin gedişi fonunda dünya enerji bazarında yaranan problemlər, Qərb, Avropanın Rusiyaya tətbiq etdiyi embarqolar nəticəsində Rusiya neft-qazının dünya bazarına çıxarılmasında problemlərin yaranması mahiyyət etibarilə enerji böhranını formalaşdırmağa başlayır. Bu da enerji qiymətlərinin qalxması ilə özünü göstərir, Avropada enerji təhlükəsizliyinə təhdid yaradır. Ona görə də Baydenin bu məktubda Avropada və dünyada enerji təhlükəsizliyi məsələsinə toxunmasının arxasında bu səbəblər durur. Azərbaycan öz neftini Bakı-Tbilisi-Ceyhan əsas boru kəməri vasitəsi ilə Avropa və dünya bazarlarına çıxardır.

Bundan başqa, TANAP-TAP layihəsi üzrə aparılan işlər Azərbaycan qazını həm Türkiyə bazarlarına, həm də Cənubi Avropanın -Yunanıstan, İtaliya daxil olmaqla 6 ölkəsinə daşıyır. Bunun ümumi miqdarı 2 milyard kub metr olsa da, gələcəkdə 30 milyard kubun üzərinə çıxarılması hədəflənir. Bu, əslində mahiyyət etibarilə Avropanın enerji təhlükəsizliyinə bir töhfə verə və müəyyən məqada təsir edə bilər".

Politoloq hesab edir ki, bu gün vəziyyət ABŞ və dünya iqtisadçıları tərəfindən belə dəyərləndirilir. Onun fikrincə, bu ABŞ-ın iqtisadi baxımdan Azərbaycana önəm verdiyinin bir göstəricisidir. S.Hümbətovun qənaətincə, burada Azərbaycan-Ermənistan arasında diplomatik münasibətlərin qurulması, Qafqazda sülhün əldə edilməsi ilə bağlı məsələlərə toxunulması xüsusilə önəmlidir.

"ABŞ bilir ki, Azərbaycan hər zaman sülhün tərəfdarı olub və bu gün də bu tendensiyanı davam etdirir.

Burada Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması, sülhün əldə edilməsi ABŞ-ın Qafqaza olan marağının təmin olunmasına böyük dəstək ola bilər. Bayden tərəflər arasında danışıqların aparılması, iqtisadi-siyasi əməkdaşlıqların qurulması və sair məsələlər toxunmaqla onu göstərir ki, əslində ABŞ Qarabağ münaqişəsinin qısa müddət ərzində həll olunmasının tərəfdarıdır. Ona görə ki, həm transxəzər, Qafqaz regionu ilə bağlı ABŞ-ın hədəfləri, maraqları var".

✍ **Tahirə**

# Hərbi təhsil mərkəzləşdirilir

***Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığı ilə Azərbaycan Ordusunun Türkiyə Silahlı Qüvvələrinin standartlarına uyğunlaşdırılması istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində hərbi təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi məqsədilə Milli Müdafiə Universiteti yaradılıb. Müdafiə Nazirliyindən verilən məlumata görə, əvvəllər mövcud olan Silahlı Qüvvələrin Hərbi Akademiyası, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi və digər xüsusi təyinatlı təhsil müəssisələri öz fəaliyyətlərini yeni yaradılan Milli Müdafiə Universitetinin nəzdində Hərbi Elmi-Tədqiqat İnstitutu, Hərbi İdarəetmə İnstitutu, Heydər Əliyev adına Hərbi İnstitut, Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzi, Heydər Əliyev adına hərbi lisey, Cəmşid Naxçıvanski adına hərbi lisey və Tibb Universitetinin Hərbi Tibb Fakültəsi adı altında fəaliyyət göstərirlər. Qeyd olunub ki, aparılan struktur islahatları çərçivəsində ordumuzda elm və hərbi təhsil sahəsi daha da uğurlu inkişaf edir.***



**Milli Müdafiə Universitetində gözləntilər nədən ibarətdir?**

## Müzakirə

■ **Bununla bağlı hafta.az-a danışan ehtiyatda olan mayor, hərbi ekspert Ədalət Verdiyev deyib ki, bu addım ordu quruculuğu, peşəkarlığın daha da artırılması istiqamətində həyata keçirilən tədbirlərin tərkib hissəsidir:**

"Yeni universitetin yaradılması həm idarəetmə, həm hərbi konsepsiyanın formalaşmasında, hərbi təhsilin prioritet istiqamətlərinin müəyyənləşdirilməsində, eyni zamanda, yeni silahlı mübarizə üsullarının araşdırılmasında, tətbiq edilməsində mühüm rol oynayacaq". Ekspert vurğulayıb ki, inkişaf etmiş bir çox ölkələrdə bu model uğurla tətbiq olunur: "Təbii ki, biz bununla bağlı xüsusi olaraq Türkiyə təcrübəsini əsas götürürük. Eyni zamanda, əksər ölkələrdə də bu model uğurla tətbiq olunur və kifayət qədər də effektiv nəticələr əldə edilib. Hesab edirəm ki, bu islahat ölkəmizdə də uğurla aparılacaq və Azərbaycan ordusu təbii ki, təhsil sistemi olaraq bununla yeni mərhələyə keçəcək".

■ **Mövzu ilə bağlı hafta.az-la fikirlərini bölüşən təhsil eksperti Elçin Əfəndi bildirib ki, hərbi təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi məqsədilə Milli Müdafiə Universitetinin yaradılması müsbət addımdır:** "Müdafiə Nazirliyindən verilən məlumata görə, əvvəllər mövcud olan Silahlı Qüvvələrin Hərbi Akademiyası, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi və digər xüsusi təyinatlı təhsil müəssisələri öz fəaliyyətlərini yeni yaradılan Milli Müdafiə Universitetinin nəzdində Hərbi Elmi-Tədqiqat İnstitutu, Hərbi İdarəetmə İnstitutu, Heydər Əliyev adına Hərbi İnstitut, Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzi, Heydər Əliyev adına hərbi lisey, Cəmşid Naxçıvanski adına hərbi lisey və Tibb Universitetinin Hərbi Tibb Fakültəsi adı altında fəaliyyət göstərirlər. Təbii ki, bu təhsil müəssisəsinin yaradılmasında, hərbi sahədə biliklərin paylaşılmasında Türkiyə tərəfinin də dəstəyi var. Düşünürəm ki, milli olaraq, eyni millət olaraq və digər amilləri də nəzərə alaraq bu yeniliyi müsbət dəyərləndirmək olar". Ekspert bu təhsil ocaqlarında görmək istədiyi perspektivlərə də toxunub və qeyd edib ki, bu məsələdə təkcə ad dəyişməsi yox, məzmun da, keyfiyyət də dəyişməlidir: "Dünyada yeni çağırışlar var. Daha çox texnologiyalara üstünlük vermək lazımdır. Məsələn, müasir hərb sənayesinə daxil olan ixtisaslar üzrə kadrların hazırlığının həyata keçirilməsi daha məqsəuyğun ola bilər. Eyni zamanda, tutaq ki, dronlar üzrə mütəxəssis, müasir informasiya texnologiyaları, onun hərbləşdirilmiş versiyası kimi istiqamətlər prioritet olaraq seçilsə daha effektiv nəticələr əldə edilə bilər".

> “
> *Təbii ki, biz bununla bağlı xüsusi olaraq Türkiyə təcrübəsini əsas götürürük*
>
> *Müasir hərb sənayesinə daxil olan ixtisaslar üzrə kadrların hazırlığının həyata keçirilməsi daha məqsəuyğun ola bilər*

✍ ***Sevinc***

# Kissincerin son bəyanatı təsadüfi deyil...

***Azərbaycanın sabiq baş diplomatı Tofiq Zülfüqarovla hafta.az üçün budəfəki söhbətimizdə ABŞ-ın keçmiş Dövlət katibi Henri Kissincerin Ukraynaya ərazilərini güzəştə getmək təklifini səsləndirdiyi son bəyanatının siyasi mənası və məqsədləri, hazırda Ukraynanın torpaqlarının işğalını davam etdirən Rusiya lideri Vladimir Putinin H.Kissincerlə və bütövlükdə Amerikanın müəyyən siyasi dairələri ilə bağlılığı ehtimalı, Ukrayna Prezidenti Vladimir Zelenskinin bu günlərdə Ukraynadakı Polşa vətəndaşları üçün xüsusi statusun tətbiq olunması haqda açıqlamasının mahiyyəti və s. haqda bəhs etdik.***



**Tofiq Zülfüqarov,**
Azərbaycanın sabiq baş diplomatı

## Müsahib

***- Tofiq müəllim, xəbər verildiyi kimi, ABŞ-ın keçmiş Dövlət katibi Henri Kissincer Ukraynaya ərazilərini güzəştə getməyi təklif edib. Necə düşünürsüz, Putin Rusiyada hakimiyyətdə olduğu son illərədək onunla hər il görüşərək hər dəfə 2-3 saatlıq qapalı görüş keçirən H.Kissincerin Ukraynaya torpaqlarını güzəştə getmək təklifinin arxasında hansı qlobal dairələr və hansı məqsədlər dayanır?..***

- Öncə Kissincer haqda demək lazımdır ki, o, yalnız keçmiş dövlət katibi yox, ümumiyyətlə, Amerikanın siyasi elitasının başçılarından biridir. Son onilliklərdə də qeyri-rəsmi olaraq bütün ABŞ prezidentlərinə məsləhətlər verib və onun sözü çox yüksək səviyyədə qiymətləndirilib.

Yəni bu baxımdan Kissincerin bəyanatını təsadüfi və əhəmiyyətsiz saymaq olmaz. İkinci bir məqama da toxunmaq olar. Bu günlərdə "Nyu-York-Tayms" qəzetində Qərbin Ukraynaya köməyi məsələsində tənqidi mövqeni əks etdirən bir məqalə dərc olunub. Orada belə bir fikir səslənib ki, artıq noyabr ayında Konqresə seçkilərdə respublikaçılarla demokratlar üz-üzə gələcək və kim ABŞ vətəndaşlarına inflyasiya, qiymət artımı və s. problemlər yaratmayacaqsa, o qalib olacaq.

Yəni bu mənada Amerika dövlətinin Ukrayna ilə bağlı büdcədən əlavə xərclər ayırması təqdir olunmur. Bu minvalla ABŞ siyasi elitasının əksər hissəsində təxminən Kissincerin dedikləri kimi bir mövqe formalaşıb. Odur ki, bu, Ukrayna üçün çox təhlükəli bir siqnaldır və onu ciddi qəbul etmək gərəkdir.

***- Avropada da Kissincer kimi düşünən siyasi dairələr, hətta dövlət liderləri var?***

- Bəli. Avropada da var Ukraynanın taleyinə bu cür yanaşanlar. Məsələn, demək olar ki, Fransa və Almaniya rəhbərləri Kissincerlə təqribən eyni mövqedədirlər. Bu da onu göstərir ki, artıq Ukraynaya kömək dalğası əks dalğa ilə qarşılaşa bilər. Bu da çox təhlükəli mesajdır. Gələcəkdə nə olacağını söyləmək çətindir.

Hamı başa düşür ki, strateji baxımdan qalib Ukrayna olacaq. O baxımdan ki, Rusiyada sanksiyalarla bağlı baş verənlər gələcəkdə hakimiyyət dəyişikliyinə gətirə bilər və bəlkə də 5-10 illik perspektivdə Ukraynanın qələbəsi rəsmiləşə bilər.

Hazırkı mərhələdə, hesab edirəm ki, ən azı, hərbi baxımdan üstünlük Rusiya tərəfdədir. Qərb Ukraynaya müasir texnika və silahları gec çatdırmağa başladı. Həmin texnikaların idarəsini mənimsəmək üçün orduya təlimlər keçirilməlidir. Bu da bir neçə ay çəkə bilər. Ukrayna buna dözəcəkmi, yoxsa yox?.. Söyləmək çətindir. Bu saat xəritəyə də baxanda görünür ki, artıq Rusiya ikinci dərəcəli istəklərinə, yəni Donetsk və Luqansk vilayətlərini bütün inzibati sərhədləri boyu işğal etməkdə və Krıma da quru zolağını açmaqdadır. Bütün bunları Ukrayna rəhbərliyi özü təhlil etməlidir...

***- Sizcə, Kissincer və onun bağlı olduğu dairələr bu bəyanatı Putinlə koordinasiyalı şəkildə verib, yoxsa?***

- Hesab edirəm ki, elə Rusiyanın Ukraynaya təcavüzü də Qərbin eyni dairələri ilə koordinasiyalı şəkildə baş verib. Bu, mənim şəxsi fikrimdir. Məsələyə obyektiv yanaşdıqda əslində Ukraynanın işğalı Rusiyanın az qala dağılmasına aparan bir prosesdir. Rusiyada artıq çoxları başa düşür ki, Putin rejimi ölkəni tələyə salıb.

***- Belə çıxır ki, Putin Qərbin bəhs edilən dairələrinin təsiri altında özü Rusiyanı tələyə salacağını bilə-bilə Ukraynanın işğal edilməsi haqda əmr verib?..***

- Belə anlaşılır, yəqin ki, dostlarının məsləhəti ilə. Bu proseslərin qurbanı Ukraynadır və Ukrayna xalqıdır.

***- Eyni zamanda həm də Rusiya xalqı...***

- Bəli.

***- Ukrayna Prezidenti Vladimir Zelenskinin bu günlərdə Ukraynadakı Polşa vətəndaşları üçün xüsusi statusun tətbiq olunması haqda açıqlamasına necə baxırsınız? Sizcə, həmin qanun layihəsinin mahiyyəti nədən ibarətdir?***

- Bəhs edilən qanun layihəsinin mətni tam açıqlanmayıb. Onu deyim ki, bu da Ukrayna üçün çox təhlükəli perspektiv vəd edir. Guya Polşa ilə hansısa yeni səviyyəli əlaqələr qurulacaq. Məsələ ondan ibarətdir ki, həmin layihə Ali Rada tərəfindən təsdiqlənərsə, Polşa vətəndaşları Ukrayna ərazisində seçkilərdə səsvermədən başqa Ukrayna vətəndaşları ilə eyni hüquqlara malik olacaq.

Yəni onlar Ukraynada hərbi xidmət keçə və polisdə işləyə biləcəklər. Bu, dediyim kimi, çox təhlükəli siqnaldır. Hamı başa düşür ki, bu cür addımları atan tərəf, yəni dövlət başçısı Zelenski daha böyük böhrandan sığortalanmaq üçün belə edir. Prezidentin bu addımı Ukrayna xalqı tərəfindən birmənalı qarşılanmır. Bir sözlə, Ukrayna ətrafında vəziyyət çox mürəkkəbdir...

> “
> *Rusiyada çoxları başa düşür ki, Putin ölkəni tələyə salıb*

✍ ***Sultan Laçın***

# Paşinyan hakimiyyətdə qalacaq

**Beynəlxalq siyasi analitik Teymur Qasımlı ilə hafta.az üçün budəfəki söhbətimizdə Ermənistanda Paşınyana qarşı "müqavimət hərəkatı"nın ehtimal olunan sonuclarından, Ermənistan hökumət başçısının KTMT-nin son iclasındakı çıxışından, KTMT daxilində baş verən proseslərdən, Rusiyanın Ukraynaya təcavüzü fonunda Putinin hakimiyyətinin gözlənilən taleyindən və s. bəhs etdik.**



**Teymur Qasımlı,**
beynəlxalq siyasi analitik

***- Teymur bəy, Ermənistanda Paşınyana qarşı "müqavimət hərəkatı"nın sonu necə bitəcək, sizcə?***

- Hazırda Ermənistan uğrunda dünyanın supergücləri mübarizə aparır. Əsasən də Paris və Vaşınqton Paşinyanı öz yanlarında görmək istəyir. Kreml də bundan bərk narahatdır. Son zamanlar isə Putin rejimi Azərbaycan-Ermənistan yaxınlaşmasından, xüsusən də bunun Qərbin vasitəçiliyi ilə olmasından çox narahat olur. Ona görə də Moskva Ermənistanda özünə bağlı siyasi qüvvələrin əliylə mitinqlər təşkil edir.

Rusiya hakimiyyəti mitinqləri Paşinyanın tamamilə Qərbə tərəf yönlənməsinin qarşısını almaq üçün onu daim təzyiq altında saxlamaq məqsədi ilə təşkil edir. Kreml bilir ki, Paşinyanı devirə bilməyəcək. Paşinyan isə iqtidarda qalmaq üçün Qərb və Moskva arasında ustalıqla manevrlər edir.

44 günlük savaşda Azərbaycanın qələbəsi nəticəsində imzalanmış 10 noyabr 2020-ci il tarixli üçtərəfli razılaşmadan sonra Ermənistanda kütləvi aksiyalar çox olub, hətta ordunun baş qərargah rəisi belə, üsyan qaldırıb. Sonda həmin aksiyaların hamısı uğursuzluqla nəticələnib və Paşinyan qalib gəlib. Odur ki, hesab edirəm ki, Paşinyan bu dəfə də baş verən siyasi etiraz aksiyalarının qarşısını alacaq və iqtidarda qalacaq...

***- Paşinyanın son Moskva səfəri zamanı KTMT-ni tənqid etməsi nəyə hesablanıb?***

- KTMT-Rusiyanın istəyi ilə yaranmış təşkilatdır. Odur ki, bu təşkilatda əsas rol Rusiyanındır. Bununla belə, bu təşkilatın heç bir real gücü və dunya siyasətində rolu yoxdur. NATO-nun bircə qurumu qədər təsir gücü yoxdur. Son zamanlar isə KTMT aktivlik edir. B fəallıq bu ilin yanvarında Qazaxıstanda baş verən siyasi proseslərdə başladı. Lakin Çinin təzyiqi ilə Kreml Qazaxıstanı tərk etdi.

Son KTMT iclasında çıxış edənlər öz dövlətlərinin problemlərindən danışırdı. Paşinyan da öz çıxışında həmin qurumu tənqid etdi. Birincisi, son iclasda Rusiya istəyirdi, KTMT-əlaqələndirici şurası öz əlində olsun. Məsələ ondadır ki, əgər üzv dövlətlərdə hər hansı fövqəladə hadisə baş verərsə, KTMT üzvlərinin müzakirəsi olmadan əlaqələndirici dövlət həmin ölkəyə ordu göndərə bilər. Digər üzvlər dolayısı ilə buna qarşı çıxdılar, yəni öz dərdlərini danışaraq manevr elədilər. Qaldı konkret Paşinyanın tənqidinə. O, bundan öncə də KTMT haqda tənqidi fikirlər bildirib. Bu təşkilatın əsas nüvəsi Rusiyanın əlindədi, nə desə, o da olur. Paşinyanın nə deməsinin heç bir mənası yoxdur.

Azərbaycan dövlətinin rəhbəri ADA Uuniversitetindəki çıxışında bilidirdi ki, Xəzər sahili dövlətlərlərdən Ermənistana hərbi yardımlar daşınırdı. KTMT üzvü olan Qazaxıstan da bunu edib. Son iclas Rusiyanın buradakı istəklərini qarşını almaq üçün idi. Rusiya istəyir ki, KTMT üzvləri Ukrayna müharibəsində ona dəstək versinlər. O da hələ ki mümkün deyil.

***- Son günlər Qarabağda, o cümlədən Tərtər rayonunun Ağdərə şəhərində separatçı ermənilərin İrəvandakı hərəkata dəstək aksiyaları Moskva tərəfindən yönləndirilir?***

- Qarabağda olan oyuncaq separatçı qurumu və ordakı qeyri-qanuni silahlı dəstələri 1988-ci ildən bu günə qədər Rusiya idarə edib. Hazırda da oradakı prosesləri Kreml idarə edir. Həmin qondarma rejimin rəhbəri qatil və terrorçu Arayik Arutyunyan da Rusiyanın təsiri altındadır. Bu mənada da hazırda Qarabağda baş verən bütün siyasi proseslərin arxasında Kreml var.

***- Rusiyanın Ukraynaya artıq 3 aya yaxındır davam edən təcavüzündə Qərb, ABŞ və NATO ölkələrinin nə dərəcədə suçu var?***

- Rusiya-Ukrayna mübaribəsinin əsas günahkarı, təbii ki, başda Putin olmaqla Rusiyadır. Qərbin, NATO-nun da bu savaşda öz oyunları var ki, orada maraqları çərçivəsində işlər aparılsın. Qərb deyəndə bu müharibədə əsas önəmli rolu London-Vaşıqton cütlüyü oynayır. Amma onu da demək lazımdır ki, Ukrayna dövlətinin günahı ondan ibarətdir ki, 30 ildir müstəqil olsa da, öz silahlı qüvvələrini tam düzgün formada qura bilməyib.

Son məlumatlara görə, hazırda Pentaqon Rusiya ordusu rəhbərliyi ilə danışıqlar aparır. Baş qərargah rəislərinin telefon söhbəti olub.

***- Putinin məhz onu hakimiyyətə gətirmiş "FSB" sistemi tərəfindən zərərsizləşdirilməsi və ya devrilməsi ehtimalı nə qədərdir?***

- Hazırda "FSB" klanı güclənir və maraqlıdır ki, məhz bu cinah tərəfindən Pütinə qarşı addımlar atılır. Digər güclü klan olan hərbçilər isə hazırda məğlub cinah sayılır. Putin isə bu saat həmin iki klan arasında manevrlər edir. Bunu demək istəyirəm ki, Putinin siyasi karyerası bitib. Rusiya liderinin xərçəngdən əziyyət çəkməsi və əməliyyat olunması da böyük ehtimalla dəqiqdir. O ya xəstəlik yolu ilə, yaxud prezidentlik müddəti bitdikdən sonra gedəcək.

> “
> *Qarabağda baş verən siyasi proseslərin arxasında Kreml var*

✍ ***Sultan Laçın***

# Yeni epidemiya MEYMUNÇİÇƏYİ

*Koronavirus pandemiyasından qurtulacağımız günü gözləyərkən, indi də meymunçiçəyi virusu deyilən əcaib epidemiyanın eşiyində dayanmışıq. Yayılan xəbərə əsasən, İsveçrədə bir nəfərdə bu xəstəliyin aşkarlanması ilə virusun yayıldığı ölkələrin sayı 13-ə yüksəlib və dünyada ilk dəfə olaraq Belçikada karantin elan olunub. Azərbaycan Səhiyyə Nazirliyi deyir ki, sözügedən xəstəlik o qədər də qorxulu deyil. Yoluxma sürəti olduqca aşağıdır, öldürücü təsiri isə nadirdir. Üstəlik, bu xəstəliyi 70 faiz yaxına buraxmayan vaksin də mövcuddur.*



## Təhlükə

### Bioloji silah fərziyyəsi

**Əvvəllər Mərkəzi və Qərbi Afrika ölkələrində, daha konkret desək, ilk dəfə 1970-ci illərdə Konqo Demokratik Respublikasında qeydə alınan və son 10 ildə sürətlə yayılan meymunçiçəyi virusunun haradasa 30 il öncə Rusiya alimləri tərəfindən bioloji silah olaraq yaradıldığı üzə çıxıb.** Özü də bu məlumatı adi biri deyil, məhz adıçəkilən silahın hazırlanmasında mütəxəssis olaraq iştirak etmiş bioloji silahlar üzrə mütəxəssis Kolonel Kanat Alibekov açıqlayıb. Onun sözlərinə görə, meymunçiçəyi virusu Rusiyanın bioloji silah laboratoriyasında 30 il əvvəl hazırlanıb və ruslar onun təsirini öyrənmək üçün 1990-cı illərin əvvəllərində Konqoda sınaqdan keçiriblər. "Bu səbəbdən də Rusiyada çiçək xəstəliyi yerinə hansı model virusdan istifadə edəcəyinə dair proqram hazırlanıb. Vaxtilə çiçək xəstəliyi üçün model olaraq siçançiçəyi, dovşançiçəyi və meymunçiçəyi viruslarını sınaqdan çıxarmışıq. O vaxt belə fikir hakim idi ki, bütün növ bioloji silahları məhz bu model viruslardan istifadə edərək hazırlamaq olar. Bir sıra müsbət nəticə qazandıqda, çiçək xəstəliyi virusu ilə eyni manipulyasiyaları etmək və müharibə agentini hazırlamaq üçün sadəcə iki həftə bəs edirdi. Rus bioloji silah cəbbəxanasında hazırda geni dəyişdirilmiş bir çiçək xəstəliyi virusu var. SSRİ dağıldıqdan sonra Rusiya Müdafiə Nazirliyi gələcəyin bioloji silahlarını yaratmaq üçün meymunçiçəyi variantı ilə işinə davam edib. Göründüyü kimi, Ukraynada gedən müharibədə anti-Rusiya mövqeyində dayanmış Avropa və Amerikaya qarşı bu silahın məhz Moskva tərəfindən tətbiq edilməsi inandırıcı görünür. Rusiya ilə Qərb arasında sözün əsl mənasında müharibə gedir...

Onu da vurğulayaq ki, Ümumdünya Səhiyyə Təşkilatının rəsmisi İbrahim Soce Fallın sözlərinə əsasən, ötən il meymunçiçəyi virusuna yoluxma ilə bağlı Konqoda 6 mindən çox, Nigeriyada isə 3 min hadisə aşkar edilib. Onun Avropanın inkişaf etmiş ölkələrinə, eləcə də Şimali Amerika ölkələrinə yayılması narahatedicidir.

### Virusun xarakteri

**Bir az da virus haqqında danışaq. ÜST-nin məlumatında deyilir ki, bu xəstəlik elmdə monkeypox virusu kimi tanınan infeksiya nəticəsində yayılır.** Monkeypox virusu isə adətən Qərbi və Mərkəzi Afrikanın tropik ölkələrində insanlar arasında yayılmaqdadır. İnfeksiya insana bu virusun əsas daşıyıcısı sayılan dələ, meymun və siçovulla, eləcə də yataq dəsti və paltar kimi əşyalarla təmas zamanı yoluxur. Bununla belə, yoluxmuş şəxslə çox yaxın təmas zamanı da ötürülə bilər. Meymunçiçəyi virusuna insana ilk yoluxma halı 1970-ci ildə Konqo Demokratik Respublikasında qeydə alınıb və o vaxtdan bu infeksiya sözügedən regionda görülməkdədir. İndiyədək Afrikadan kənarda yalnız bir neçə hadisə qeydə alınıb ki, onlar da həmin regiona səfərdən qayıdanlarda olub.

Monkeypox virusu yüngül formada olur və xəstələrin əksəriyyəti müalicə olunmadan bir neçə həftə ərzində öz-özünə sağalır. Bununla belə, xəstəlik ölümcül olub, yoluxduğu insanların 10 faizini öldürə bilər. Monkeypox virusu orqanizmin infeksiyalarla mübarizə qabiliyyətinin bəzi aspektlərini söndürür. Vücudun mübarizə apara bilmədiyi digər virus və bakteriyaların da olması səbəbindən, ən pis hallarda xəstələr bədəndə ölümcül şoka və ya qan zəhərlənməsinə tab gətirməli olurlar. Çox qəribədir ki, gənc xəstələrdə ölüm ehtimalı daha çoxdur. Qeyd edək ki, monkeypox nadir virusdur və çiçək xəstəliyinə səbəb verə bilər. Ama indiki meymunçiçəyi adlanan xəstəliyi insanlar daha yüngül keçirir və mütəxəssislər bu halda yoluxma ehtimalının az olduğunu bildirirlər.

### Əlamətləri

**Meymunçiçəyi virusunun inkubasiya dövrü (infeksiyadan simptomların başlanmasına qədər - V.T.) adətən 6 - 13 gündür, lakin 5 - 21 gün arasında da dəyişə bilər.** İnfeksiyanı iki dövrə bölmək olar: təxminən, 3-4 gün sürən 39-40 dərəcəyə yüksələn qızdırma, davamlı başağrısı, limfadenopatiya (limfa düyünlərinin şişməsi), bel ağrıları, əzələ ağrıları və şiddətli zəifliklə xarakterizə olunan invazyon dövrü 0-5 gün arasında davam edir. Lenfadenopatiya meymunçiçəyi virusunun ilkin olaraq oxşar görünə bilən digər xəstəliklərlə (suçiçəyi, qızılca, çiçək xəstəliyi) xarakterik əlamətidir. Dəri səpgiləri, adətən, qızdırma göründükdən 1-3 gün sonra başlayır. Kiçik qırmızı ləkələr əvvəlcə üzdə, sonra başda, sinədə, kürəkdə, qollarda və ayaqlarda görünür. Onların içi maye ilə dolur, sonra irinli kisələrə çevrilir. Bu vaxt bədəndə yenidən qızdırma alovlanır. Təxminən, 12-ci gündə sızanaqlar partlayır, 16-cı gündə isə sızanaqlar qabıq qoyur, 2-ci və 3-cü həftələrdə qabıqlar tökülür, yerində çuxur qalır

### Virusdan qorunmağın yolları

**Bu xəstəliyin qarşısını almaq üçün nə etmək lazımdır? Meymunçiçəyi virusuna yoluxmanın qarşısını almaq üçün görüləcək tədbirlər aşağıdakılardır:**

- virus daşıya bilən heyvanlarla (meymunçiçəyi xəstəliyinin baş verdiyi ərazilərdə xəstə və ya ölü tapılmış heyvanlar da daxil olmaqla) təmasdan çəkinmək;
- xəstə heyvanla təmasda olan hər hansı çirklənmiş materialla təmasdan çəkinmək;
- yoluxmuş xəstələrlə təmasdan çəkinmək;
- yoluxmuş heyvan və ya insanlarla təmasdan sonra ciddi şəkildə əl gigiyenasına riayət etmək. Məsələn, əlləri sabun və su ilə yuyub, spirt əsaslı əl dezinfeksiyaedici vasitələrlə silmək;
- xəstələrlə təmasda olan zaman fərdi qoruyucu vasitələrdən (FPE) istifadə etmək.

### Xəstəliyin müalicəsi varmı?

**Bu xəstəliyin müalicəsi varmı? Xəstəliyin qarşısının alınmasının ən yaxşı yolu xəstənin 6 həftəlik karantində qalmasıdır. Meymunçiçəyinin müalicəsi yoxdur, lakin virusun yayılmasının qarşısını almaqla epidemiyanı dayandırmaq mümkündür.** Çiçək xəstəliyinə qarşı peyvəndin meymunçiçəyi xəstəliyinin qarşısının alınmasında 85 faiz effektiv olduğu sübut edilib. Bu da narahatlığı xeyli azaldır.

Diaqnoz polimeraza zəncirvari reaksiya (PZR) dəqiqliyi və həssaslığı nəzərə alınmaqla üstünlük verilən laboratoriya testi əsasında qoyulur. Mümkün olduqda biopsiyadan da istifadə edilir. Ortopoxviruslar seroloji cəhətdən çarpaz reaktiv olduqları üçün antigen və antikorların aşkarlanması üsulları meymunçiçəyi üçün spesifik təsdiqi təmin etmir. Buna görə də resurslar məhdud olduqda diaqnostika və ya keys tədqiqatı üçün seroloji və antigen aşkarlama üsulları tövsiyə edilmir.

Meymunçiçəyi virusu infeksiyası üçün sübut edilmiş, təhlükəsiz müalicə hələ mövcud deyil. Çiçək peyvəndi, virus əleyhinə dərmanlar və venadaxili immun qlobulin (VIG) meymunçiçəyi epidemiyasına nəzarət üçün istifadə edilə bilər. Bununla belə, hazırda orijinal (birinci nəsil) çiçək xəstəliyinə qarşı peyvəndlər artıq insanlara tətbiq edilmir. Çiçək və ya meymunçiçəyi xəstəliyinin qarşısının alınması üçün yeni peyvənd 2019-cu ildə təsdiqlənib, lakin dövlət sektorunda hələ geniş istifadə olunmur.

### Ekspert fikirləri

■ **Medipol Mega Universiteti Xəstəxanasının doktoru Sevgen Tanır Başaranoğlu deyir ki, çiçək peyvəndinin meymunçiçəyi virusuna qarşı 85 faiz təsiri var.** "Ümumiyyətlə, çiçək xəstəliyi min illərdir yer üzündə mövcud olan virus infeksiyasıdır. Yüksək hərarət, halsızlıq, şiddətli bel ağrısı, qarın ağrısı və qusma şikayətləri ilə özünü göstərən xəstəlik bir neçə müddət ərzində səpgilərlə davam edir və bütövlükdə yanaşsaq, dünyada peyvəndlərin geniş tətbiqi ilə çoxdan silinib gedib. Çiçək xəstəliyinə səbəb verən virusla eyni qrupda olan meymunçiçəyi virusu əslində yeni tapıntı deyil, 1970-ci ildən bəri Afrika ölkələrində fasilələrlə epidemiyalar şəklində özünü göstərir. Son belə epidemiya forması 2003-cü ilə təsadüf edir. Hazırda Avropa ölkələrində 80-dən çox xəstəyə bu diaqnoz qoyulub, 50 hadisə isə hələ də araşdırılır", - deyir doktor Başaranoğlu. Virusun yayılma yollarından, xəstəliyin inkişafından və başa çatmasından söz açan doktor Başaranoğlu qeyd edir ki, bu virusdan qorunmaq üçün ən yaxşı vasitə eynilə "COVID"də olduğu kimi, sosial məsafəyə və təmaslara diqqət yetirməkdir.

Başaranoğlunun sözlərinə görə, xüsusilə immun çatışmazlığı olan xəstələr risk qrupuna daxildirlər. Odur ki, məhz immun sistemi zəif insanlar özlərini daha çox qorumalıdırlar.

ABŞ-dakı Çekson Laboratoriyasında baş elmi işçisi, professor Dərya Forgetme deyir ki, heç kim bu xəstəliyi özünə dərd etməməlidir. Bu o demək deyil ki, insanlar ehtiyatı əldən verməlidir, əslə, hamı özünü qorumalıdır.

"ABŞ-ın dərman agentliyi FDA bu günlərdə meymunçiçəyi virusu əleyhinə çiçək üçün hazırlanmış dərmanı təsdiqləyib. Köhnə çiçək xəstəliyinə qarşı peyvəndlər də çox təsirlidir. Monkeypox hadisələrinin ötürülməsi çətin olsa da, qorxmaq və ya narahat olmaq üçün əsas yoxdur. Əminəm ki, Avropada da belə dərmanlar təsdiqlənib", - Dərya Forgetme nikbinliklə deyir.

✍ Vüsal

# "Meymunçiçəyi virusu ilə əlaqədar qabaqlayıcı tədbirə ehtiyac yoxdur"

*Dünyanın koronavirusla mübarizə apardığı bir vaxtda yeni epidemiya ehtimalı iddiası səhiyyə təşkilatlarını hərəkətə keçirib. Bu, həm də əhali üçün gözlənilməz hal olduğundan, indi hər kəs meymunçiçəyi ilə bağlı məlumatlanmağa çalışır. Elə bu səbəbdəndir ki, daha əvvəl koronavirus təzə peyda olduqda qarşılaşdığımız virus söz-söhbətləri və şayiələri yenidən gündəmdədir.*

## Səhiyyə




■ **Səhiyyə Nazirliyinin ekspert-mütəxəssisi, baş infeksionist Təyyar Eyvazov meymunçiçəyi virusu ilə bağlı hafta.az-ın suallarını cavablandırıb. Onun sözlərinə görə, təbii çiçəklə xəstələnmə hadisəsi dünya üzrə son dəfə 1977-ci ilə təsadüf edib. Bunu nəzərə alaraq, 1980-ci ildə Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) infeksiyaya qarşı peyvəndləmənin dayandırıldığını elan edib. Çiçək peyvəndi etdirmiş insanlar meymunçiçəyindən xəstələnsələr belə, infeksiyanı yüngül keçirəcəklər:**

"Bundan sonra, yalnız tibb sahəsində, laboratoriyalarda çalışan işçilər peyvənd etdiriblər. Sonuncu dəfə 1980-ci ildə doğulanlar çiçək xəstəliyinə qarşı peyvənd edildiyindən, 40 il sonra onların orqanizmində sözügedən xəstəliyə qarşı immunitetin olubolmaması ilə bağlı müəyyən mülahizələr var. Bunlar sadəcə ehtimaldır. Qeyd etmək lazımdır ki, təbii çiçəyə qarşı hazırlanmış peyvənd meymunçiçəyindən 85%-ə qədər qoruyur. Çiçək peyvəndi etdirmiş insanlar meymunçiçəyindən xəstələnsələr belə, infeksiyanı yüngül keçirəcəklər".

Baş infeksionist vurğuladı ki, xəstəlik ilk növbədə uşaqlar və immun sistemi, xroniki çatışmazlığı olan şəxslər arasında ağır keçə bilər:

"O ki qaldı 1980-ci ildən sonra doğulmuş insanlara, onlar təbii çiçəyə qarşı peyvənd olunmayıblar deyə, meymunçiçəyi virusuna qarşı həssasdırlar. 40 yaşına qədər insanlar meymunçiçəyi infeksiyası ilə qarşılaşdıqda yoluxa bilərlər. Xəstəlik, ilk növbədə, uşaqlar və immun sistemi, xroniki çatışmazlığı olan şəxslər arasında ağır keçə bilər".

> *Ümumdünya Səhiyyə Təşkilatının mövqeyi bundan ibarətdir ki, ilk növbədə əhali maarifləndirilməlidir. Azərbaycanda bu iş davam etməkdədir*

Həkim bildirir ki, meymunçiçəyi virusu ilə əlaqədar heç bir əlavə qabaqlayıcı tədbir görməyə ehtiyac yoxdur:

"Baxmayaraq ki, meymunçiçəyi qeyri-endemik ölkələrdə, Avropada, İsraildə, ABŞ-da yayılmışdır, ancaq yayılma arealı və xəstələnmə sayı kiçik olduğundan, buna qarşı xüsusi tədbirlər görməyə ehtiyac yoxdur.

Ümumdünya Səhiyyə Təşkilatının mövqeyi bundan ibarətdir ki, ilk növbədə əhali maarifləndirilməlidir. Azərbaycanda bu iş davam etməkdədir. Səhiyyə Nazirliyi tərəfindən məsələ ilə əlaqədar məlumat hazırlanmışdır ki, burada xəstəliyin klinik əlamətləri, ötürülmə yolları və s. haqqında məlumatlar öz əksini tapır. Xəstəlik aşkar edilən şəxs və onun təmasda olduğu insanlar aşkar edilərək izolyasiya edilməlidirlər".

✍ Banu

# Məktəblərdə ilk iş günü...



**28 May - Müstəqillik Günü ilə əlaqədar olaraq, beşgünlük iş rejimində çalışan məktəbəqədər və ümumi təhsil müəssisələrində mayın 27-si həftənin son iş (dərs) günüdür. Bayramdan sonrakı ilk iş (dərs) günü mayın 31-dir.**

Təhsil Nazirliyindən hafta.az-a verilən xəbərə görə, altıgünlük iş rejimində fəaliyyət göstərən məktəbəqədər və ümumi təhsil müəssisələrində də mayın 27-si həftənin son iş (dərs) günüdür. Bayramdan sonrakı ilk iş (dərs) günü isə mayın 30-u müəyyən olunub.




■ **"Moskva ümid edir ki, Brüssel Azərbaycan, Rusiya və Ermənistan liderlərinin üçtərəfli razılaşmalarının reallaşmasına kömək edəcək, geosiyasi oyunlar həyata keçirməyə cəhd etməyəcək".**

Hafta.az "Sputnik Ermənistan"a istinadən xəbər verir ki, bunu Rusiya Xarici İşlər Nazirliyinin rəsmi sözçüsü Mariya Zaxarova bu gün keçirilən brifinqdə deyib. Onun sözlərinə görə, Rusiyanın strateji məqsədi Cənubi Qafqazın sabitlik və çiçəklənmə zonasına çevrilməsi, bu prosesə töhfə verməsidir: "Bu yolda əsas tapşırıqlardan biri İrəvan və Bakı arasında münasibətlərin kompleks olaraq normallaşması, dayanıqlı sülhün qurulmasıdır".



■ **Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Türkiyənin "Baykar" şirkətinin texniki direktoru Selçuk Bayraktarla görüşüb.**

Z.Həsənov iki ölkə arasında hərbi əməkdaşlığın dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu, bu əlaqələrin inkişaf etdiyini və möhkəmləndiyini bildirib. Ölkə rəhbərlərinin dostluq münasibətlərinin dövlətlərimiz arasında əlaqələrin inkişafında mühüm rol oynadığını xüsusi vurğulayan nazir bu cür görüşlərin qarşılıqlı əməkdaşlığın genişləndirilməsi baxımından vacibliyini qeyd edib. Görüşdə bu il "Texnofest Azərbaycan" festivalının Bakıda keçirilməsinin əhəmiyyəti xüsusi vurğulanıb.



■ **"Azərbaycan sərhədçiləri tərəfindən saxlanılan, Ermənistan ordusunun əsgəri Eduard Arturoviç Martirosov Ermənistan tərəfinə təhvil veriləcək".**

Hafta.az xəbər verir ki, bu sözləri "Trend"ə açıqlamasında Azərbaycanlı Əsir və Girovlara bağlı Məlumat Mərkəzinin koordinatoru Əhməd Şahidov deyib. O bildirib ki, erməni hərbi qulluqçusu bu həftə Ermənistan tərəfə təhvil veriləcək. Xatırladaq ki, Ermənistan ordusunun əsgəri Eduard Arturoviç Martirosov bu il aprelin 23-də Zəngilan rayonu ərazisində Azərbaycan ərazisinə keçərkən Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları tərəfindən saxlanılıb.



■ **"Dövlət müəssisələrini dərhal özəlləşdirməklə heç nəyə nail olmayacağıq". Bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsinin müzakirəsi zamanı maliyyə naziri Samir Şərifov deyib.**

Nazir bildirib ki, bizdə tarif sahəsində çox ehtiyatlı siyasət aparılır: "Çalışılır ki, tariflər kəskin surətdə artmasın. Dövlət büdcəsindən bu tariflərdə olan fərq bağlanılır. Ötən ilin əvvəlində bir çox neft məhsulları üzrə liberallaşdırmaya getdik. Biz faktiki olaraq qaz üzrə qiymətləri 2 dəfəyə qədər artırdıq. Amma bu, indi dünyada qazın qiyməti ilə müqayisədə çox aşağıdır.



■ **Biz İsveç xalqının və hökumətinin NATO-ya üzvlüklə bağlı seçiminə, qərarına hörmət edir və tam dəstəkləyirik.**

Bunu Avropa İttifaqının (Aİ) Şurasının Prezidenti Şarl Mişel İsveç Baş naziri Maqdalena Anderssonla birgə keçirdiyi mətbuat konfransında deyib. "Biz inanırıq ki, bu seçim həm NATO, həm də Aİ üçün səmərəli olacaq və Avropada təhlükəsizliyi daha da gücləndirəcək.

İnanırıq ki, bu məsələ ilə bağlı NATO müttəfiqləri arasında danışıqlar müsbət nəticələnəcək", - Şarl Mişel vurğulayıb. Mişel qeyd edib ki, görüşdə Aİ ölkələrinin müdafiə qabiliyyətinin gücləndirilməsi, enerji məsələri, Ukraynadakı vəziyyət və Rusiyaya qarşı sanksiyalar da müzakirə olunub.



■ **Vaşinqton sözünü tutmalı və qısa zamanda Ukraynanı MLRS-lə təmin etməlidir. Bunu Ukraynanın xarici işlər naziri Dmitri Kuleba Davosda müzakirələr zamanı deyib. O bildirib ki, ABŞ bu raket sistemlərini tez bir zamanda Ukraynaya çatdırmalıdır.**

"Mən burada 10-dan çox ikitərəfli görüşlər keçirmişəm və görüşlərdə soruşuram ki, əgər sizin MLRS sisteminiz varsa, bizi bu silahla təmin edə bilərsinizmi? Onların ilk soruşduğu bu olur: "ABŞ sizə hələ MLRS göndərməyib?" Lider olmaq belədir, hər kəs sizi gözləyir.

Əgər biz bu silahları almasaq, Donbasda vəziyyət indikindən daha da pis olacaq. İstəmirəm ki, hər kəsdə fikir yaransın ki, müharibə ilə bağlı vəziyyət yaxşıdır.

# Müharibə təcrübəmiz dünyada öyrənilir

**_44 günlük Vətən Müharibəsindən sonra Azərbaycanın hərb sistemində dünyaya təqdim etdiyi təcrübə xüsusilə qeyd olunur. Dünya ekspertləri Azərbaycanın XXI əsrdə apardığı müharibədə qazanılan uğuru hələ də araşdırmaqdadır. Bu gün Bakıda keçirilən Texnofest festivalını şərh edən ekspertlər, məsələyə birmənalı yanaşır. Ümumən, Texnofest festivalının əhəmiyyəti, rolu nədir? Bayraktar başda olmaqla dron zərbələri müharibənin taleyində hansı rolu oynadı? Bu suallar qoyularkən, önə çəkilən yeni nüanslar ilə xüsusilə diqqət çəkir. Hərbi ekspert Emin Həsənli hafta.az-a bildirib ki, 44 günlük Vətən Müharibəsi dronların istifadə olunması baxımdan çox önəmli idi. Onun sözlərinə görə, dronlar bu müharibədə uğurla sınaqdan çıxdı._**



## Müzakirə

"Xüsusən də bütün dünya Türkiyə dronlarının gücünün nədən ibarət olduğunu gördü. Dünyanın ən məhşur hərbi ekspertləri, hərbi akademiyaları bəyan etdilər ki, artıq müharibəyə yeni baxış var. Bu dronlar dünyada hərb sənayesinə milyardlarla ziyan vurdu. Yəni, dünyada silah istehsal edən dövlətlərin bir çoxunun artıq yeni müharibədə silaha, texnikaya baxışında dəyişiklik yarandı. Biz bunu bu gün Ukrayna müharibəsində də görürük".

Hərbi ekspert qeyd edib ki, Azərbaycan-Ermənistan müharibəsindən sonra bir çox ölkələr Azərbaycanın hərbi taktikasından istifadə edir. Onun sözlərinə görə, ABŞ, Böyük Britaniya və Fransa bu müharibəni təhlil edir, müdafiə və dronlardan istifadə qaydaları öyrənilir.

"Təsəvvür edin ki, pilotsuz təyyarələrin, helikopterlərin istehsalına başlanacaq. Türkiyə hərbi sənayesi daha da güclənir və bu da bizi sevindirir. Türkiyə bizim qardaş dövlətdir. Azərbaycanla hərtərəfli, o cümlədən hərbi əməkdaşlığı yüksəkdir. Gələcəkdə bizdə də pilotsuz uçuş aparatlarının birgə istehsalı nəzərdə tutulur. Azərbaycanın da pilotsuz uçuş aparatları var. Müharibədə cənab Prezidentin "İti qovan kimi qovuruq" fikrini əsas götürərək, pilotsuz uçuş aparatına "iti qovan" adı da verilmişdi. Azərbaycan da pilotsuz uçuş aparatlarının müasirləşməsi, yenilənməsi istiqamətində xeyli addımlar atır və Türkiyə ilə bir yerdə layihələr həyata keçirdir. Hər bir dövlət çalışır ki, onun ordusu güclü olsun, müasir silah-sursata malik olsun". E.Həsənli qeyd edib ki, dünyada əsas uğurlu amillərdən biri ordunun silahının həmin dövlətin özünün istehsal etməsidir. Onun sözlərinə görə, bu proses qardaş Türkiyədə də 80 faizə çatıb. Yaxınlarda qarşıya məqsəd qoyulur ki, öz hərbi sistemini 100 faiz öz texnikası ilə təchiz etsinlər.

"Azərbaycan dövləti də bu istiqamətdə xeyli addımlar atır. Cənab Prezidentin sərəncamı ilə yaradılan Müdafiə Sənayesi Nazirliyinin xeyli uğurları var. Dünyanın bir çox ölkələrinə silah ixrac edir və gələcəkdə Azərbaycanın da qarşısına qoyduğu hədəflərdən biri ondan ibarətdir ki, öz silahı, öz texnikası ilə ən güclü ordusunu, hərbi sistemini yaratsın".

Hərbi ekspert hesab edir ki, bu gün Bakı şəhərində keçirilən "Texnofest"in çox böyük əhəmiyyəti var. Bu, Azərbaycan dövlətinin bir çox istiqamətlərdə, o cümlədən silah sərgilərinin, festivalların keçirilməsi baxımından orduya, müasir texnologiyaya verdiyi qiymətdir. Türkiyə ilə Azərbaycan qardaşlığına verilən qiymətdir.

"Bu, Azərbaycan gənclərinin, tələbələrinin gələcəkdə bu sahəyə marağının artırılması baxımından önəmlidir. Səlcuq Bayraqdarın məşhur bir çıxışı var. Deyir ki, qarşıya məqsəd və hədəflər qoyularsa və bu hədəflərə doğru düzgün gedirlərsə, istənilən problemləri həll etmək olar, istənilən nailiyyətlərə çatmaq olar. O bildirir ki, biz vaxtında bu işlərə başlayanda Türkiyədə bir çox bürokratlar deyirdi ki, biz bunu Amerikadan alsaq yaxşı olar, biz özümüz bu cür müasir silahlar istehsal edə bilmərik. Amma zaman və mətinliklə çalışmaları onu göstərdi ki, bütün hədəflərə çatdılar. Azərbaycan gəncləri də bu istiqamətdə uğurlu addımlar atacaqdır".

*Tahirə Qafarlı*

# "Bu "qazilər" ən böyük cəzaya layiqdirlər"

**44 günlük müharibədən sonra Azərbaycan dövlətinin şəhid ailələrinə, qazilərə dəstəyi, onların bütün ehtiyaclarının qarşılanması, problemlərinin həlli, sosial təminatının yaxşılaşdırılması istiqamətində ardıcıl addımları davam edir.**



**Çingiz Qənizadə,**
DİHK-nin sədri, hüquq üzrə fəlsəfə doktoru

*Bunlara qarşı inzibati metodlardan dəhral çəkinmədən istifadə edilməlidir*

Bununla belə, qazi, şəhid ailəsi adından sui-istifadə hallarının olduğu istisna edilmir və belə hallar ciddi neqativləri ortaya çıxarır. Bunun yolverilməzliyi, belə qanunazidd əməllərin ictimaiyyət tərəfindən qınanılması ilə bağlı fikirlər birmənalıdır. "Saxta qazi" mövzusu bu gün cəmiyyətdə nə dərəcədə aktualdır və bunu aradan qaldırmaq üçün hansı addımlar atılmalıdır?

■ **Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri, hüquq üzrə fəlsəfə doktoru Çingiz Qənizadə hafta.az-a bildirib ki, Qarabağda əldə etdiyimiz qələbələrə görə ilk öncə Şəhidlərimizə, qazilərimizə, Azərbaycan Ordusuna, Ali Baş Komandana minnətdarıq. Hüquqşünas hesab edir ki, nə qədər Azərbaycan var, bu dövlətin qazilərinə və Şəhid ailələrinə, əsgərinə qarşı qayğı, diqqət hər zaman olacaq və biz hazırda bunun şahidiyik.**

"Azərbaycan dövləti qazilərimizə və Şəhidlərimizə, digər təbəqədən olan bu insanlara qarşı çox diqqətlidir. Bu gün sosial problemlərin həlli istiqamətində saysız-hesabsız görülən işlərin şahidi oluruq. Elə bu yaxınlarda 500-ə yaxın mənzili olan yeni şəhərcikdə 200-ə yaxın qazi və şəhid ailəsinin mənzillə təmin olunmasının şahidi olduq. Belə hallar minlərlədir. Qazilər, şəhid ailələri avtomobillərlə təmin olunur, kreditləri silinir, onlara müəyyən evlər tikilir, iş yerləri ilə təmin olunurlar. Belə ki, digər belə yardımların göstərilməsi, tibbi yardım öz ölkəmizdə mümkün olmadıqda qazilərin xaricdə müalicəsinin həyata keçirilməsi ilə bağlı saysız faktlar var". Hüquqşünas bu istiqamətdə dövlət büdcəsindən xeyli miqdarda vəsaitlərin ayrıldığını önə çəkib. O, hesab edir ki, bu işlər gələcəkdə daha uğurla davam edəcək. Ç.Qənizadə təəssüf hissi ilə bildirir ki, bir çox hallarda bizim qazilərimizin adlarından sui-istifadə halları olur.

"Biz 44 günlük müharibədən öncə də qazilərin müəyyən hissəsinin müəyyən iş adamlarının əlində bir vasitə kimi istifadə edilərək, torpaqların zəbt edilməsi, evlərin, obyektlərin tikilməsi faktları ilə rastlaşmışıq. Bunun qarşısı qanuni yolla alındığı zaman isə aksiyaların keçirilməsi ilə bağlı xoşagəlməz hadisələrin şahidi olmuşuq. Elə bu yaxınlarda bir şəhid anasının adından Sabunçu rayon ərazisində baş verən hadisə buna sübutdur. Dövlət bu xanımla bağlı lazım olan addımları atıb, qadın mənzillə təmin olunub və s. Məlum oldu ki, bu xanımın adından hansısa işbaz qeyri-yaşayış sahəsi inşa etdirmək niyyətində olub. Yəni bu cür hallar var. Eyni zamanda qazi adından küçədə dilənən bir nəfərin polis tərəfindən saxlanılması və onun həqiqətən qazi olmamasının ortaya çıxması, gizlətdiyi ayaq nahiyəsinin videogörüntülər vasitəsilə aşkarlanmasının, onun durub-yeriməsinin şahidi olduq".

Hüquqşünas bu faktları utanc doğuran, qazi və Şəhidlərimizin adına xələl gətirən hallar kimi qeyd edib. "Onlara qarşı mübarizə ciddi olmalıdır. Qazi adından istifadə edərək küçədə "Ayağı yoxdur", - deyə forma alan, dilənən şəxsə 30 sutka həbsin verilməsi, təbii ki, təqdirəlayiqdir və bu hal başqalarına da dərs ola bilər. Qazilərimizin adlarından yararlanaraq guya ki, şəhid ailələrinə yardım etmək üçün pul kartlarının əldə edilməsini də görürük. Qazilərimizin adından müxtəlif orqanlara tələblər irəli sürürlər.

Bunlar var və təbii ki, xoş deyil. Biz qazimizə, şəhidimizə, döyüşən hər bir əsgərimizə sevgimizi izhar etməklə, aramızda və sıramızda olan bu cür yaramaz insanları gördükdə təəssüf hissi keçiririk. Qazi, şəhid adından saxta yolla istifadə edib, nəsə dividend əldə etmək istəyən, onların ləyaqətli adına xələl gətirən hərəkət edənlər, əslində, qazi olmayanlar ən böyük cəzaya, ictimai qınağa layiqdirlər. Bunlara qarşı inzibati metodlardan dəhral çəkinmədən istifadə edilməlidir".

*Tahirə Qafarlı*



# "Nar" abunəçiləri rəqəmsal xidmət kanallarına üstünlük verir

R

**Müştəri yönümlü strategiyasını davam etdirən "Nar", 2022-ci ilin ilk rübü üçün müştəri xidmətlərinin göstəricilərini açıqlayıb.**

Aparılan hesablamalar göstərir ki, "Nar" müştəriləri balansın yoxlanılması, yeni tarifin aktivləşdirilməsi, internet paketinin seçilməsi kimi bir çox mühüm əməliyyatları saniyələr içində yerinə yetirən "Nar+" tətbiqinə üstünlük verir. Belə ki, ötən illə müqayisədə "Nar+" tətbiqindən istifadə yarım milyon artaraq 6,6 milyon olub. Yaranan suallara operativ cavab almaq üçün isə abunəçilərin köməyinə tətbiq daxilindəki canlı çat gəlir. Hesabat dövründə abunəçilər sorğularına ilk 24 saniyə ərzində cavab alıblar.

"Nar" abunəçilərinin nömrə əməliyyatlarını daha çox tətbiq üzərindən aparması fonunda çağrı mərkəzlərinə zənglərin və "Nar" xidmət mərkəzlərinə ziyarətlərinin sayında azalma müşahidə olunur. 2022-ci ilin ilk üç ayı ərzində 777 Çağrı Mərkəzinə edilən zənglərin və Nar mərkəzlərinə ziyarətlərin sayı, eyni dərəcədə, 17% azalıb.

Çağrı mərkəzinə daxil olan sorğuların 93%-i ilk zəngdən həllini tapıb. Ön masa ziyarətçilərinin isə 89%-i göstərilən xidmət səviyyəsini yüksək qiymətləndirib.




# Zaur Ustacın söz çələngi

**(Çiçəklər, dağlar və Xudayar dastanı)**



**Vaqif Yusifli,**
filologiya elmləri doktoru

Şairlər çiçəklərə, güllərə sevgi dolu şeirlər həsr edərlər. Əsrlər boyu bənövşə, lalə, qərənfil, qızılgül poeziyamızın əbədi obrazlarına çevriliblər. Qurbaninin «Bənövşə»si yüzlərlə bənövşələrin şeirimizdə ətirli sərgisinə dönüb, «Heç yerdə görmədim düz bənövşəni» deyib ustad.

Xətai qızılgülü candan əziz tutduğu sevgilisinə bənzədib: «Qızılgül, bağü-bustanım, nə dersən, Fəda olsun sənə canım, nə dersən?». Xan qızı Natəvan qərənfili çiçəklərin ən gözəlinə bənzədib, qərənfillər 20 Yanvar faciəsi günləri bütün Azərbaycanı matəm çiçəkləri kimi bəzədilər: «Qərənfil, şəhid qanı, Ağla, qərənfil, ağla». Lalə isə çöllərimizinn, düzlərimizin qırmızı xalısı kimi hamımıza gözəllik bəxş edirlər, Rəşidin mahnısında yaşayır o lalələr.

Şair Zaur Ustac da çiçək sevgilərini şeirlərində dönə-dönə vəsf edir. Onun poeziyasında güllərin, çiçəklərin ayrıca bir hüsnü, lətafəti var- bu güllər, çiçəklər insan qəlbinin təbiətlə vəhdətini əks etdirir. İnsan niyə gül-çiçək aşiqidir, niyə bənövşə ilə həmdərddilər, niyə laləyə - onun gözəlliyinə baş əyirlər, niyə qızılgülləri sevgililin gözəlliyi ilə bir tuturlar? Bu milli-mənəvi dəyərlərimizin bir kriteriyası deyilmi? Poeziyamızda insan-təbiət paraleli - insanda təbiəti, təbiətdə insanı təcəssüm etdirmək klassik poeziyanın da, müasir şeirimizin də aparıcı bir xəttinə çevrilib və bu missiyanı həyata keçirmək Zaur Ustaca da həvalə olunur.

Zaur Ustac «Ağçiçəyim» və «Şehçiçəyim» şeirlərində özünün çiçək sevgisini mütləqləşdirir. Əslində, o, bu çiçəkləri vəsf edirkən, metaforik bir üsula əl atır- əslində, onun vəsf etdiyi çiçəklər gözəlliyin özüdür, təbiətin gözəllikdə təcəssümüdür.

**Dümağsan, qar sənin yanında qara,**
**Tanrım rüsxət verib, baxmayıb qara,**
**Bu qarlı qış hara, tər çiçək hara,**
**Xoş gördük, günaydın, ay Ağçiçəyim!**

«Şehçiçəyim» şeirində isə həm təbiətin bu nadir çiçəyinin-bu canlı gözəlliyin tərənnümü ilə qarşılaşırıq, həm də bu çiçəyin bir sevgili timsalına döndüyü ifadə olunür.

**Tacısan dünyamda tum çiçəklərin,**
**Köksündən bal süzən, tər Şehçiçəyim**
**Sehrinə düşmüşəm nur ləçəklərin,**
**Əqli başdan alan zər Şehçiçəyim**

**Cəzbində qalmışam, tamam çar-naçar,**
**Sağımda, solumda çox çiçək açar,**
**Pərvanəyə dönü, dövrəmdə uçar,**
**Sərrafam, seçmişəm, dürr Şehçiçəyim.**

**Bir kərə, bir anlıq olsa da vüsal,**
**Ruhuma rahatlıq verməyir xəyal,**
**Sonu ölümsə də, gəl qoynuna al,**
**Həsrətlə yaşamaq, zor Şehçiçəyim**

Çiçəklərə sevgi «İnci, qərənfil» şeirində başqa bir məna kəsb edir. «Ağçiçəyim» və «Şehçiçəyim»də gözəlliyə vurğunluq hissi ön plana keçirsə, «İnci, qərənfil»də məhzunluq, çiçəyin halına acımaq duyğusu ilə qarşılaşırıq. Bu da heç şübhəsiz, 20 Yanvar qərənfillərinin təəssüratından irəli gəlir.

**Olsan da bu işdə ən son müqəssir,**
**Gəl, məndən incimə, inci qərənfil.**
**Utanc çiçəyisən, utanc çiçəyi,**
**İstəsəin lap məndən inci, qərənfil.**

Şeirdə inci sözü iki məna daşıyır, həm ən bahalı zinət (inci), həm də incimək sözünün kökü (incimək, küsmək) kimi. Şair niyə qərənfilə «qaxınc çiçəyi» deyir? Bəlkə də bu deyimlə razılaşmamaq olar, amma bu «həya örpəyi»nin şəhid qəbirlərinə düzülməsi onu mütəəsir edir. Nəhayət, çiçəklərə sevgi onun «Matah çiçək» şeirində daha bariz nəzərə çarpır. «Matah» sözü burada sırf müsbət mənada işlənir və bütün çiçəklərə aid olur:

**Əzəldən ağ çiçək dedim,**
**Cəzbində Şehçiçək dedim,**
**Gözlədim, Balçiçək dedim,**
**Bərzəx ruha dağ, çiçəyim,**
**Ay mənim matah çiçəyim.**

Zaur Ustacın dağlara həsr etdiyi şeirlər də insan-təbiət vəhdətini əks etdirir. «Dağlar» şeiri «Ruhuna min rəhmət, Dədə Ələsgər» epiqrafl ilə başlayır və hiss olunur ki, bu qoşma ustadın poetik ənənəsini davam etdirmək cəhdindən yaranıb. Zaur Ustac təbiətin - gül-çiçəyin zərifliyindən onun zirvəsinə-dağlara yol alır. Amma bu şeirdə Dədə Ələsgər ruhu dolaşsa da, Zaur Ustac dağlara müasir bədii təfəkkürlə yanaşır.

**Nədəndi, ürəyim çırpınır yenə,**
**Gördükcə hüsnündə məlalı, dağlar?!**
**Yağı cövlan edir, dağıdır yenə,**
**Qoynunda büsatı, cəlalı, dağlar!**

**Dünya belə qalmaz, dəyişər zaman,**
**Yenə dövran olar, həmənki dövran,**
**Bulaqlar başında məclislər quran,**
**Oğullar ərsəyə gələli, dağlar!**

«Dağlar» adlı başqa bir şeirdə isə kövrəklik notları qürur hissləri əvəz edir. Artıq işğalda olan dağlar da azad olunub. Və şair Azərbaycan tarixinin zəfər dolu səhifələrini yada salır:

**Xətai qırmadı könül bağını,**
**Nadir unutmadı hicran dağını,**
**İlhamın silahı əzdi yağını**
**Dəmirdən yumruğun mübarək, dağlar!**

Təbiətin adicə bir yarpağı da şeirə gələ bilər və Zaur Ustac «Yarpaq və torpaq» şeirində Yarpağın və Torpağın obrazlarını yaratmaqla maraqlı bir şeir ərsəyə gətirmişdir:

**Bizə can verənin canın almayaq,**
**Bu iki aşiqin yolun burmayaq,**
**Yarpağı torpağa həsrət qoymayaq,**
**Yarpaq elə torpaq, torpaqdır yarpaq.**

Zaur Ustac bu günün, yaşadığımız gerçəkliklərin şairidir. Biz onun güllərə, çiçəklərə, dağlara həsr elədiyi şeirlərlə söhbətə başladıq.Yəni şairin zəriflik, kövrəklik hisslərinin təbiət gözəllikləri ilə necə qaynaqlandığını nəzərə çarpdırdıq. Amma Zaur Ustac bir-birindən fərqli müxtəlif mövzularda şeirlər yazır. Bu şeirlərin bir qismi vətənpərvərlik, yurdsevərlik motivləri üzərində köklənib. Onun Mübariz İbrahimova, Polad Həşimova, İlqar Mirzəyevə həsr elədiyi şeirlər bu Milli Qəhrəmanlarımıza poeziyanın bir az hüznlü, amma daha çox qürurla söylənilən xitablarıdır.

«Can ay ana» şeində şair Polad Həşimovun anasının oğlunun məzarı önündə düşüncələrini təqdim edir. «Can ay Ana, bu baxışda nələr var Bu baxışda Poladının mərdliyi, Ərənliyi, cəsurluğu, qürur var». Onun İlqar Mirzəyevə həsr elədiyi bir neçə şeiri var və bu şeirlərin hər birində qəhrəmanlığın tərənnümü ilə qarşılaşırıq:

**Hər şey belə başladı,**
**Gülə-gülə getmişdin.**
**Döndün üzdə təbəssüm,**
**Çöhrənə həkk etmişdin.**

**Tək getmişdin gedəndə,**
**Yüz min olub qayıtdın.**
**Özün getdin yuxuya,**
**Milyonları oyatdın.**

İkinci Qarabağ müharibəsinin dillərdə dastan olan qəhrəmanlarından biri də Xudayar Yusizadə idi. Ölümündən qabaq Xudayar sözləri Əliağa Vahidin olan bir mahnı oxuyur. İndi bu mahnı-təsnif «Xudayar təsnifi» adlanır. Zaur Ustac Xudayar haqqında sonetlər çələngi düzüb-qoşub. Sonetlər çələngi düzüb-qoşmaq şairdən istedad tələb edir, gərək bu şeir növünün formal tələblərinə əməl edəsən, həm də on beş sonetdə məzmunu, irəli sürdüyün qayəni, məqsədi sonadək eyni ardıcılllıqla davam etdirəsən. Hər sonetin axırıncı misrası sonrakı sonetin ilk misrasına çevrilir və axırda-on beşinci sonetdə yeni bir sonet yaranır. Fikir tamamlanır. On beşinci soneti (italyan soneti formasında) sizə təqdim edirik:

**Xudayar çağırdı anan adını,**
**Şəfqətlə əyilib öpdü üzündən.**
**Səni məhəbbətlə bağrına basdı,**
**Oğul ətri gəldi kövrək sözündən.**

**Böyüdün həyatda ər oğlu ərtək,**
**İstədin yurddaşın olsun bəxtiyar.**
**Qarabağ uğrunda gedən savaşda,**
**Adını tarixə yazdın, Xudayar.**

**Şəhidlik köynəyi geydin əyinə,**
**Düşməni almadın heç vaxt eyninə,**
**Qartaltək uçduğun zirvəyə döndün.**

**Səsindən qələbəətri ələndi,**
**Zəfər sevincinə torpaq bələndi,**
**Vətəndə əbədi nəğməyə döndün.**

Bu yazıda Zaur Ustacın bir sıra şeirlərinin adını çəkə bilərik ki, bu şeirlər onun fərdi üslubu barədə müəyyən təsəvvür yaradır. Fikrimizcə, onun təbiətə, onun ayrı-ayrı fəsillərinə və gözəlliklərinə həsr etdiyi şeirlər daha uğurludur. Hiss olunur ki, Zaur Ustac təbiəti yaxşı duyur, təbiətlə insan akrasındakı vəhdəti də şeirlərinə gətirir. Onun Ali Bavş Komandan İlham Əliyevə, üçrəngli bayrağımıza həsr etdiyi şeirlər də poetik baxımdan sanballıdır. «45» şeirlər kitabında toplanan sevgi şeirləri barədə də xoş sözlər söyləməfk olar, belə ki, Zaur Ustac sevgi şeirlərində yaşanılan, duyulan hissləri qələmə alır. Bu şeirlərin birində onun sevgiyə, sevilən qadına, gözəl qadına münasibəti dolğun şəkildə öz ifadəsini tapır:

**Gözəl sima, heç gözəllik deyildir,**
**İncə bədən, heç incəlik deyildir,**
**Zərif tellər, heç zəriflik deyildir,**
**Gözəl insan, sən daxilən gözəılsən!**

«Bütöv Azərbaycan» qəzetində (6 may nömrəsində) Zaur Ustacın yeni şeirləri ilə tanış oldum. «Elə ad verin ki, bəxti yar olsun!!!» şeirində üzünü atalara tutub deyir ki, qız uşaqlarınız dünyaya gələındəonlara uğurlu adları əsirgəməyin, «Ya Humay çağırın, ya Sona deyin, Elə ad verin ki, bəxti yar olsun!». Rəşad Məcidə ünvanladığı «Ağ adam» şeirində Ağdam və Ağcabədi adlarının kökünə varır. Vaqif Mustafazadəyə həsr etdiyi və ingilis soneti formasında yazdığı şeiri də Vaqifin sənətkar portretini yaratmaq mənasında uğurludur. Və biz Zaur Ustaca belə gözəl şeirlər yazmaqla yolunu davam etməyi arzulayırıq!

# Elm insanın gil palçığından yarandığını təsdiqlədi

***"İnsanın gildən yaradılması" problemi geologiya və biologiya sahəsində aparıcı tədqiqatçılar tərəfindən intensiv şəkildə araşdırılır. Tədqiqatlarla Massaçusets Texnoloji İnstitutundan Hayman Hartman, Kaliforniya Universitetindən Leyl M. Koyn, Belçikanın Liyege Universitetindən Pyer Lazio və Qlazqo Universitetindən Qraxman K. Smit kimi tanınmış alimlər məşğul olublar. Hafta.az dəyərli oxucuları xarici İslam saytlarına istinadla təqdim etdiyimiz materialda bu mövzu ilə tanış olmağa dəvət edir:***



## Araşdırma

"Gil, daha doğrusu, lil nədir?.. Uca Allah Quranda buyurur:

"O, öz hikməti ilə hər şeyi ən gözəl surətdə yaratmış və insanı yaratmağa palçıqdan başlamışdır" (Qurani-Kərim, "Səcdə" surəsinin 7 ayəsi).

"O, insanı (Adəmi) saxsı kimi (toxunduqda səs çıxardan) quru palçıqdan yaratdı." ("Rəhman" surəsi, 14-cü ayə).

Biz "lil" sözünü tələffüz etdikdə adətən ağcaqanadlarla dolu bataqlığı - bütün yoluxucu xəstəliklərin yığımını təsəvvür edirik. Ən yaxşı saxsı qabın lildən hazırlandığı da məlumdur.

Lil, gil və qum qarışığı olmasaydı, elektronika meydana gəlməz, qitələrarası və peyklərarası rabitə yaranmazdı. XX əsrin ən böyük kəşfi olan kompüterlər də ixtira olunmazdı.

Elektron elementlərin (diod, tranzistor, rezistor və s.) - yarımkeçiricilərin əsası lildən başqa bir şey deyil. Ən yeni kommunikasiyanın əsasını qoyan "super-keçiricilər" də lilin törəməsidir.

Lilin xassələri tükənməzdir. O, yaxşı katalizatordur, neft emalında əvəzolunmaz sürətləndiricidir. Zəhəri zərərsizləşdirir, onu zəhərlənmiş maddələrin tərkibindən özünə çəkir və bununla da onları təmizləyir. Lilin digər mühüm xüsusiyyəti onun radiasiyanı udmasıdır. O, radioaktiv maddələrdən radiasiya şüalarını udaraq ətraf mühitin təmizlənməsinə töhfə verir.

### Lil (gil) canlı orqanizmdir

"...Həqiqətən, Biz onları yapışqan palçıqdan yaratdıq" ("Saffat" surəsinin 11-ci ayəsinin mənası).

### Tədqiqat

**Kaliforniya Dövlət Universitetindən Dr. Leyl M. Koyn bildirir ki, "zahirən hərəkətsiz görünən lil daxilində sirli bir həyat yaşayır.** Qatılaşmış lil parçası..",- o yazır,- "Mən balta ilə vurdum və kəşf etdim: o, laboratoriyada bir ay ərzində ultrabənövşəyi enerji yayırdı. Mənim lilin onun mənbəyi olmasına təəccübləndi.

Məsələ nədədir? Lil kristal elementlərdən ibarətdir. Kristalların molekulları lövhələr və ya vərəqələr şəklində sıralar əmələ gətirir. Onlar ion zəncirini qururlar. Hər bir lil hissəciyində yerləşən "kimyəvi reaksiyanın təşəbbüskarı" adlandırılan ionlar onlara verilən proqrama uyğun hərəkət edirlər.

Bu xüsusiyyəti ilə lil canlı hüceyrəyə bənzəyir, burada hüceyrənin ən kiçik hissəcikləri, eləcə də ionlar sürətləndirici funksiyanı yerinə yetirir...".

**Dr. Leyl M. Koyn: "Zahirən hərəkətsiz görünən lil daxilində sirli bir həyat yaşayır"**

### Düşünməyə səbəb

**Tədqiqatların nəticələri göstərdi ki, kristalın ion zənciri xarici təsir altında məhv edildikdə, bir müddət sonra vərəqəyə bənzər molekullar onu yenidən bərpa edir.**

Ceym Qlekə görə, "kristallarda ion zəncirinin hərəkəti şahmat taxtasındakı fiqurların məntiqi hərəkətinə bənzəyir". Leyl M.Koyn deyir: "Lilin kristal birləşməsi ilə onun bütün imkanları tükənmir, çünki ən təmiz kristal daha çox ağ kağıza bənzəyir. İon zəncirinin hərəkəti, yəni onun elektrik cərəyanını keçirmə qabiliyyəti xarici təsirlərə məruz qalır. Həyatın ən sadə axını buna əsaslanır - enerjini kənardan götürüb istifadə etmək. Özünü yeniləmək isə növbəti addımdır. Bu iki halın lildə olması həyatın ondan yaranması nəzəriyyəsini bir daha təsdiqləyir.

**Doktor Hartman isə bu barədə belə deyir:**

"Daha təkmil avadanlıqla biz özümüzü lil molekullarını öyrənməklə məhdudlaşdırmazdıq, onun atom quruluşuna daha dərindən nüfuz edərdik və şübhəsiz ki, daha əhəmiyyətli nəticələr əldə edərdik. Lakin o zaman belə , mən buna əminəm, yer üzündə həyatın mənşəyi haqqında dolğun cavabımız olmayacaq. "Məncə, - tədqiqatçı yazır, "həyat" və "canlı" anlayışları atomların və molekulların maddiliyi ilə bağlı deyil. Lilin xassələrinin öyrənilməsində nə qədər irəliləyiş əldə olunsa da, biz ondan insan yaradılmasını nəzəri cəhətdən əsaslandıra bilməyəcəyik, çünki bu, bizim əqli və intellektual imkanlarımız xaricindədir. Həyatın anlaşılmaz düsturu Yaradanın öz əlindədir. Biz yalnız düşünmək üçün səbəb verə bilərik, lakin laboratoriyalarda həyat yaratmaqda acizik.

Doktor H.Hartmanın təbirincə desək, "həyata həyat verən" şey, Quran və hədislərin bildirdiyi ruhdan başqa bir şey deyil. Ruhun hərəkətinin mahiyyəti isə insan ağlına tabe deyil.

Çünki Quranda buyurulduğu kimi:

"(Ya Rəsulum!) Səndən ruh (ruhun mahiyyəti və keyfiyyəti) haqqında soruşarlar. De: "Ruh Rəbbimin əmrindədir. (Allahın əmri ilə yaradılmışdır). Sizə (bu barədə) yalnız cüzi (az) bir bilik verilmişdir!" ("İsra", 85)

*Sultan Laçın*

## HƏFTƏ REYTİNQ

### Həftənin GÖRÜŞÜ



Əldə edilmiş razılaşmaların həyata keçirilməsi çərçivəsində və iki ölkənin müvafiq sərəncamları əsasında Baş nazirin müavini Şahin Mustafayev və Ermənistan Baş nazirinin müavini Mher Qriqoryanın Ermənistan-Azərbaycan dövlətlərarası sərhədində Azərbaycanla Ermənistan arasında sərhədin delimitasiyası üzrə Komissiya formatında ilk görüşü keçirilib. Tərəflər, delimitasiya və digər məsələlər üzrə Komissiya çərçivəsində işləməyə hazır olduqlarını təsdiq ediblər.

### Həftənin SƏFƏRİ



Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu İsrailə rəsmi səfər edib. Çavuşoğlu səfəri çərçivəsində israilli həmkarı Yair Lipidlə danışıqlar aparıb. Çavuşoğlunun sözlərinə görə, həmkarı ilə görüş zamanı regional məsələlər barəsində fikir mübadiləsi aparıblar. Qeyd edək ki, Çavuşoğlunun səfəri son 15 ildə Türkiyə xarici işlər naziri səviyyəsində İsrailə edilən ilk səfərdir. Xatırladaq ki, Çavuşoğlu İsraildən əvvəl Fələstinə səfər edib.

### Həftənin CİNAYƏTİ



Tbilisidə ictimai nəqliyyatda dəhşətli qətl törədilib. Avtobusda kişi arvadının boğazını kəsərək onu qətlə yetirib. Cütlük uşaqlarla avtobusda gedərkən aralarında mübahisə yaranıb. Mübahisə zamanı kişi bıçağı çıxararaq arvadının boğazını kəsib, qadın yerindəcə keçinib. Hadisəni törədən şəxs dərhal saxlanılıb. Faktla bağlı cinayət işi açılıb.

### Həftənin MƏHKƏMƏSİ



Rusiyanın paytaxtı Moskvada azərbaycanlı jurnalist və "Nə? Harada? Nə zaman?" televiziya oyununun iştirakçısı Rövşən Əsgərov barəsində qiyabi həbs qərarı verilib. Sözügedən qərarı Moskvanın Basman Rayon Məhkəməsi verib. Məlumata görə, məhkəmə R. Əsgərov barəsində saxlanıldığı və yaxud ekstradisiya edildiyi andan iki ay müddətinə həbs qətimkan tədbiri seçib.

### Həftənin ŞÖHRƏTLİSİ



Azərbaycan futbolunun inkişafında xidmətlərinə görə Prezident İlham Əliyevin sərəncamı ilə "Şöhrət" ordeni ilə təltif olunmuş "Qarabağ" komandasının baş məşqçisi Qurban Qurbanova ali mükafatı təqdim edilib. Mükafatı AFFA prezidenti Rövnəq Abdullayev verib. Abdullayev Qurbanovu "Şöhrət" ordeni ilə təltif olunması münasibətilə bir daha təbrik edib, gələcək fəaliyyətində uğurlar arzulayıb. Baş məşqçi isə verilən yüksək qiymətə görə dərin minnətdarlığını bildirib.

### Həftənin QƏLƏBƏSİ



Ukraynanı təmsil edən Azərbaycanəsilli boksçu Elmir Nəbiyev Ermənistanın paytaxtı İrəvanda keçirilən Avropa çempionatında uğurlu çıxışı ilə diqqət çəkib. O, 54 kq çəki dərəcəsində erməni idmançı Canik Sahakyanı məğlub edib. Rəqibinə 3:2 hesabı ilə qalib gələn Elmir Nəbiyev sosial şəbəkələrin çıxışı müzakirə olunub.

*Azad Əliyev*

AQTA

AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ

# İstehlaka yararsız qida məhsulları məhv edilib

**Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (AQTA) istehlakçı hüquqlarının qorunması, həmçinin qida zəncirinin bütün mərhələlərində qida təhlükəsizliyinin təmin edilməsi istiqamətində tədbirləri davam etdirir.**

AQTA-dan hafta.az-a verilən məlumata görə, "Market-İN" MMC-nin Agentliyə müraciəti əsasında, istehlaka yararsız və istifadə müddəti bitmiş, ümumi çəkisi 340 kq müxtəlif növ qida məhsulları (alkoqolsuz içkilər, süd məhsulları, unlu-qənnadı məmulatları və s.) "Təhlükəli Tullantılar" MMC-yə məxsus tullantıların zərərsizləşdirilməsi poliqonunda məhv edilib. AQTA əhalinin sağlamlığının qorunması və təhlükəsiz qida məhsulları ilə təmin edilməsi üçün ardıcıl tədbirlərini davam etdirir və istehlakçı hüquqlarının pozulmasına yönəlmiş qanunsuz halların qarşısının alınması istiqamətində müvafiq addımlar atır.


# Səyahətini "Nar"ın Rouminq 18 paketi ilə salamla! ®

**Yaxınlarınızla daim ünsiyyətdə qalmaq, çevik mobil rabitə xidmətlərindən istifadə etmək üçün "Nar" müxtəlif və sərfəli rouminq paketləri təqdim edir.**




Səyahət zamanı daha çox mobil internetə ehtiyacınız varsa, "Rouminq 18" paketini sifariş etməklə 1GB mobil internet, həmçinin, pulsuz "WhatsApp" yazışmalarından faydalana biləcəksiniz. "Rouminq 18" paketini "Nar+" tətbiqində müvafiq bölmədən və ya *777#718#YES kodunu yığmaqla aktivləşdirə bilərsiniz.

Balansınızı hətta xaricdə olarkən də nəzarətdə saxlamaq, internet istifadəsini yoxlamaq, yeni paket sifariş etmək və digər nömrə əməliyyatları üçün "Nar+" tətbiqi səfərinizə rahatlıq qatacaq.

Qeyd edək ki, paketlər həm səfərdən öncə, həm də səfər müddətində sifariş oluna bilər. Rouminq paketləri ilə bağlı daha ətraflı məlumatı nar.az/roaming-packages səhifəsindən əldə edə bilərsiniz.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Şirkət son 3 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur.


## GÜNÜN FOTOSU



Kann festivalında qırmızı xalıdan keçənlər

# Çeşidlənən tullantılar

**Faiq Mütəllimov,**
ETSN-in Ekoloji siyasət şöbəsinin müdiri

Azərbaycanda tullantıların çeşidlənməsi o qədər də yüksək səviyyədə deyil:

Səh. 4

## STATİSTİKA



**Bu ilin yanvar-aprel aylarında Azərbaycana dünyanın 151 ölkəsindən 330,6 min və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2,0 dəfə çox əcnəbi və vətəndaşlığı olmayan şəxs səfər edib.**

Gənclərin 26,2 faizi Rusiya Federasiyası, 25,3 faizi Türkiyə, 14,7 faizi İran, 6,1 faizi Gürcüstan, 3,2 faizi Ukrayna, 2,6 faizi Səudiyyə Ərəbistanı, 2,4 faizi Birləşmiş Ərəb Əmirlikləri, hər birindən 1,9 faiz olmaqla Hindistan və Pakistan, 1,5 faizi Qazaxıstan, 1,3 faizi Küveyt, 1,2 faizi Böyük Britaniya, 11,7 faizi digər ölkələrin vətəndaşları olub. Gələnlərin 80,3 faizini kişilər, 19,7 faizini qadınlar təşkil edib.




Səh. 6

# "Meymunçiçəyi virusu ilə əlaqədar qabaqlayıcı tədbirə ehtiyac yoxdur"